# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!




NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 53 (7308) / Çərşənbə, 20 mart 2019-cu il


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz bayramını xalqla birlikdə qeyd ediblər



⇨ Bax: səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV TUNİSLİ HƏMKARINI TƏBRİK EDİB

Prezident İlham Əliyev Tunis Prezidenti Beji Kaid əs-Sebsiyə təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Tunis əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına sülh və rifah diləyirəm".

⇧ Bax: səh. 5



Əli Həsənov:

**Bob Woodwardın "Fear: Trump in the White House" kitabında yayılan məlumat yalan və saxtadır**

⇧ Bax: səh. 8

*Səfir:* **Birinci vitse-prezident Mehriban Əliyevanın Parisə səfəri Azərbaycanla Fransa arasında münasibətlərin dinamik xarakter daşıdığını nümayiş etdirdi**



*Əli Əhmədov:*

## Ölkə vətəndaşlarının rifahı həmişə dövlətimizin başçısının diqqət mərkəzindədir



⇨ Bax: səh. 6

## Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi



⇨ Bax: səh. 9

## SOCAR-da Liviya Milli Neft Korporasiyasının sədri ilə görüş



⇨ Bax: səh. 7

⇧ Bax: səh. 8



Filip Qotye:

**Azərbaycanın Birinci vitse-prezidentinin Fransa səfəri ikitərəfli əlaqələrin inkişafına mühüm töhfələr verəcək**

⇧ Bax: səh. 10




**Akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodli Kitabxanasının yaradıcısının şərəfinə təşkil edilən təntənəli qəbulda iştirak edib**

⇧ Bax: səh. 11



**Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam müstəqil siyasət həyata keçirir**

14 **Elm cəmiyyətin nicatı, tərəqqisi və rifahının rəhnidir**

15 ERMƏNİ MƏKRİ HƏR ADDIMDA: **əks-hücum taktikasına keçməyimizin vacibliyi**

16 **Dubay haqqında bunları bilirsinizmi?**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz bayramını xalqla birlikdə qeyd ediblər

**Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. "İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.**




Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsi və milli ruhunu özündə əks etdirir. Novruz xalqın milli təfəkkür tərzini, onun həyat və məişətini, adət və ənənələrini özündə yaşadan əsl el mərasi-



midir. Odur ki, xalqımız durduqca Novruz adət-ənənələri, onun yaratdığı mədəni sərvətlər də bizimlə olacaq. Çünki Novruz bayramı dərin milli köklərə, zəngin adət-ənənələrə malik olmaqla xalqımızın ictimai və mənəvi həyatında əhəmiyyətli hadisədir. Novruz həm də xalqımızın milli həmrəyliyinin rəmzidir. Ona görə də Novruzun timsalında ölkəmizdə malik olduğumuz milli mədəniyyət nümunələrinin qorunub saxlanmasının özü belə, bir mədəniyyət və bəşər əhəmiyyətli hadisədir. Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyu Novruz bayramını əziz tutub. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi milli məsələ də var idi. Çünki məhz ümummilli liderimiz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi şəkildə qeyd olunmağa başladı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Dövlətimizin başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəldilər.

Bayram şənliyinin iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə söhbət etdilər.

Prezident İlham Əliyev: Salam. Bayramınız mübarək!

Sakinlər: Çox sağ olun. Mehriban xanım, təbrik edirik. Bayramınız mübarək.



Birinci xanım Mehriban Əliyeva: Bayramınız mübarək olsun.

Novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada "Torpaq əlimdə, bahar ürəyimdə" xeyriyyə yarmarkası ilə tanış oldular.

Sakinlər: Cənab Prezident, Mehriban xanım, bayramınız mübarək. Var olsun Prezidentimiz. Cənab Prezident, Sizin gördüyünüz işləri xatırlatmağa ehtiyac yoxdur. Hamısı göz qabağındadır. Məhz buna görə Mehriban xanımı da, Sizi də hamı sevir. Allah Sizi qorusun. Sizə və ailənizə cansağlığı diləyirik. Bayramınızı bir daha təbrik edirik.

Prezident İlham Əliyev: Çox sağ olun, sizin də bayramınız mübarək olsun.

Dövlətimizin başçısı və birinci xanım gənc rəssamların əsərlərinin sərgisinə baxdılar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları aşıqların ifasını dinlədilər.

Aşıq Samirə: Cənab Prezident, saza, sözə diqqətə görə çox sağ olun. Bütün Azərbaycan aşıqları adından təşəkkür edirik. Bayramınız mübarək.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sonra Prezident İlham Əliyev Novruz şənliyində iştirak edən xarici ölkələrin vətəndaşları ilə görüşüb söhbət etdi.

Daha sonra dövlətimizin başçısı və xanımı İçərişəhərə gələrək burada "Bahar qalası" festivalı ilə tanış oldular.

İçərişəhərin qala divarları üstündə qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

⇨ Davamı 3-cü səhifədə





# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz bayramını xalqla birlikdə qeyd ediblər

Əvvəli 2-ci səhifədə

Ulu Dədə Qorqud xeyir-dua verdi, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayaraq dedi:

-Xoş gəlmisiniz, gəlişiniz bərəkətdir, ruzidir. Elimizdən, obamızdan heç vaxt ruzi-bərəkət əskik olmasın. Uca dağlarımız yıxılmasın, kölgəli ağaclarımız kəsilməsin, gur-gur axan təmiz sularımız qurumasın, çapa-çapda ağ-boz atlarımız büdrəməsin, çarpışanda qılıncımız kütləşməsin, evimizdə çırağımız daim yansın. Qoy, üçrəngli bayrağımız zirvələrdə dalğalansın, düşmənlərimiz xar, dostlarımız var olsun. Heç kəs düşmənə möhtac olmasın. Bayramınız mübarək olsun.



Prezident İlham Əliyev: Bayramınız mübarək olsun.

Bahar qızı dövlətimizin başçısına bayram xonçası təqdim etdi.

Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər.



Kosa: Cənab Prezident, Mehriban xanım xoş gəlmisiniz. Cənab Prezidentin təkcə bu il qurub-yaratdıqlarını danışsan gələn Novruza qədər bitməz. Bax, indi təkcə birini deyəcəyəm. Cənab Prezident, min illərdir mən xurcunumu, xonçalarımı doldura bilmirəm ki, bu Keçəlin toyunu edim. Sizin bayramqabağı verdiyiniz sərəncamlardan sonra xurcunlarımız da doldu, xonçalarımız da. Odur ki, bu Keçəlin toyunu rahat edə bilərəm.

Keçəl: Cənab Prezident, təşəkkür edirəm, gəlin, adət-ənənələrimizə uyğun olaraq bu il də yumurta döyüşdürək ki, elimiz-obamız daha da bərəkətli olsun. Qoy bu il də Azərbaycanımızın sorağı eldən-elə, dildən-dilə dolaşaraq hey ucalsın. Bayramınız mübarək olsun.

Prezident İlham Əliyev: Təbrik edirəm, bayramınız mübarək olsun.

Kosa və Keçəl dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bahar qalası" festivalı çərçivəsində İçərişəhərdə təşkil edilən yarmarka ilə tanış oldular.

Miniatür Kitab Muzeyinin yaradıcısı və təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova Prezident İlham Əliyevə miniatür kitablar hədiyyə etdi.





Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür edərək dedilər: Çox hörmətli cənab Prezident, əziz Mehriban xanım, səməni ətirli, torpaq təravətli, bahar sevincli bu gözəl bayramda Sizi ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, ölkəmizin ərazi bütövlüyü, inkişafı naminə gördüyünüz böyük və məsuliyyətli işlərdə uğurlar arzu edirik. Cənab Prezident, gələn il bizim teatrın 110 ili tamam olur. Xoşbəxtik ki, bu yubileyi Sizin imzaladığınız Sərəncamla, akademik teatr statusu ilə qeyd edəcəyik. Biz bilirik ki, Azərbaycan Dövlət Akademik Musiqili Teatrına Sizin səmimi münasibətiniz illər öncədən başlayır. Bizim əzizlərimiz, Tanrı sizi qorusun. Bayramınız mübarək olsun!

Prezident İlham Əliyev: Bayramınız mübarək olsun.

Dövlətimizin başçısı və xanımı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində oldular. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müasir Azərbaycan rəssamlarının rəsmlərinə baxdılar.



Sonda dövlətimizin başçısı və xanımı Karvansarayda İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgi ilə tanış oldular.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hədiyyələr təqdim olundu, xatirə şəkli çəkdirildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənətkarlarla söhbət etdilər.

Prezident İlham Əliyev: Sizə uğurlar, cansağlığı arzu edirəm. Bayramınız mübarək olsun.

İranlı turistlər: Bayramınız mübarək. Biz İrandan gəlmişik.

Prezident İlham Əliyev: Çox sağ olun, sizin də bayramınız mübarək.

Paytaxt sakini: Salam, bayramınız mübarək. Mehriban xanım, bayramınız mübarək.

Birinci xanım Mehriban Əliyeva : Bayramınız mübarək.

Paytaxt sakini: Oğlum, get, babaya şeir de.

Uşaq: El bilir ki, sən mənimsən,

Yurdum, yuvam, məskənimsən.

Anam doğma Vətənimsən,

Ayrılarmı könül candan,

Azərbaycan, Azərbaycan.

Birinci xanım Mehriban Əliyeva: Afərin.

Prezident İlham Əliyev: Nə gözəl, nə yaxşı uşaqdır.





Paytaxt sakini: Çox sağ olun, minnətdaram. Bayramınız bir daha mübarək. Allah Sizi qorusun. Mehriban xanım, Sizin də bayramınızı təbrik edirik, cansağlığı arzulayırıq. Neçə belə illərə çıxasınız.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət etdilər.

İçərişəhərə göstərilən daimi diqqət və qayğı Prezident İlham Əliyevin ölkəmizin milli-mədəni irsinin qorunması sahəsində uğurlu dövlət siyasətinin tərkib hissəsidir. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi memarlıq irsinin qorunması və dünyada təşviqində böyük rolu var. İçərişəhər sakinləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıq etdilər.

Davamı 4-cü səhifədə

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz bayramını xalqla birlikdə qeyd ediblər





⇨ Əvvəli 3-cü səhifədə

Prezident İlham Əliyev: İçərişəhər bizim tarixi yerimizdir. Bilirsiniz, bir neçə ildir ki, İçərişəhərin xüsusi statusu var, burada xüsusi idarəetmə yaradılıbdır. Bizim tariximiz qorunur, tarixi abidələr bərpa olunur və İçərişəhər öz gözəl simasını saxlayır. Dünyada belə böyük şəhərlər o qədər də çox deyil. Bir neçə ölkədə belə qədim yaşayış yerləri bizdəki kimi dövlət tərəfindən qorunur. O cümlədən Avropa və Asiya ölkələrində bu cür şəhərlər var. Amma İçərişəhərin xüsusi aurası, xüsusi cəlbedici gücü var. Adam buraya gələndə getmək istəmir. Çox şadam ki, son illər ərzində burada abadlıq işləri aparılır. Amma əsas odur ki, bu tarixi sima qorunur. Deməli olar ki, indi buraya hər gün turistlər gəlir.

Sakin: Mən yetmiş ildir ki, burada yaşayıram. Biz İçərişəhərin necə pis gündə olduğunu görmüşük. Küçələr daşlı idi, gəzmək olmurdu. İndi qısa müddətdə Sizin köməyinizlə İçərişəhər çox gözəl, çox rahat olub.

Prezident İlham Əliyev: Burada həm yaşamaq üçün şərait yaradılıb, həm də ki, ictimai yerlər. Bu gözəl şərait turistləri cəlb edir. İçərişəhərdə tarixi binalar təmir olundu. Onların bir çoxu köhnəlmişdi, sıradan çıxmışdı. İçərişəhər dünya miqyasında nadir bir yerdir.

Sakin: Bir vaxt deyirdilər ki, İçərişəhərdən camaatın hamısını köçürsünlər. Amma Siz qoymadınız.

Prezident İlham Əliyev: Düzdür, belə təkliflər var idi. Bu barədə mənə deyəndə qətiyyən bunun əleyhinə oldum. Çünki İçərişəhəri yaşadan burada yaşayan insanlardır. Yəni, bu, muzey deyil, bu, yaşayış yeridir. İçərişəhərlilər, onlara xas olan həyat tərzi, mədəniyyət - bunlar bizim böyük sərvətimizdir. İçərişəhərin üstünlüyü ondadır ki, qədim dövrlərdən burada insanlar yaşayır, nəsillər gəlir, gedir. Eyni zamanda, bu, açıq səma altında bir muzeydir. Bəzi ölkələrdə belə qədim yerlər, sadəcə olaraq, görüntü naminə saxlanılır, turistlər gəlirlər, gəzirlər, çay, qəhvə içib gedirlər. Amma İçərişəhərdə insanlar yaşayır. Əlbəttə ki, burada yaşayan insanlar üçün yaxşı şərait yaradılıb.



Sakinlər: Hara getsək bu yer bizi cəlb edir, hara getsək, birinci bura yadımıza düşür. Cənab Prezident, bizim muzeylərimiz də inkişaf edir. Keçən ilin dekabr ayında Nazirlər Kabinetinin qərarı ilə bir neçə muzey - Qız Qalası, Şirvanşahlar Sarayı, “Qala” Dövlət Etnoqrafik Qoruğu muzey birləşməsi oldu. İçərişəhər muzeylər mərkəzidir. Bildiyiniz kimi, Şirvanşahlar muzeyi ən aparıcı muzeylərdən biridir. Bizə qədim Şirvanşahlar dövlətindən qalan yeganə belə bir saraydır ki, çox böyük marağa səbəb olur. Buraya çoxlu turistlər gəlirlər. Bu, çox yüksək göstəricidir.





Prezident İlham Əliyev: Turistlər daha da çoxalacaq. 2016-cı ildən başlayaraq turistlərin sayı hər il artır. Əsas artım 2016-cı ildə başladı. Həmin il 22 faiz artım oldu. Ondan sonra daha 20 faiz artdı. Keçən il isə artım təqribən 5 faiz olub.





Sonra “Səma” uşaq rəqs ansamblının çıxışını izləyən dövlətimizin başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı.

Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

*Əli Həsənov:*

# Bob Woodwardın "Fear: Trump in the White House" kitabında yayılan məlumat yalan və saxtadır

## Prezident İlham Əliyevin guya Prezident Donald Trampa yanlış məlumat verməsi barədə iddiaların heç bir əsası yoxdur



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə irəli sürülən iddialarla bağlı AZƏRTAC-a açıqlama verib.

Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə "The Washington Post" qəzetində çalışan jurnalist Bob Woodwardın "Fear: Trump in the White House" kitabında əks olunmuş iddialar tam yalan və saxtadır. Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında cəmi bir dəfə - ABŞ-da keçirilmiş son prezident seçkilərindən dərhal sonra telefon danışığı olub, söhbət zamanı iki dövlət arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivi ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezidentin köməkçisi deyib ki, 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında iştirak etmək üçün ABŞ-a səfəri zamanı Prezident İlham Əliyevin ABŞ-ın dövlət başçısı ilə görüşü protokol xarakteri daşıyıb, həmin zaman heç bir söhbət olmayıb, yalnız foto-video çəkiliş həyata keçirilib. Buna görə də kitabda həmin görüşdə Azərbaycan Prezidentinin cənab Donald Trampa guya Çin Xalq Respublikasının Əfqanıstanda iqtisadi fəaliyyəti ilə bağlı hər hansı məlumat verməsi barədə irəli sürülən iddia "fake" informasiyadır və müəllifin fantaziyasından başqa bir şey deyil.

Əli Həsənov bildirib ki, ümumiyyətlə, Azərbaycan xarici siyasət məsələlərində yalnız öz milli maraqlarını rəhbər tutur və heç vaxt başqa ölkələr arasında siyasi, iqtisadi, humanitar və digər əlaqələrə müdaxilə etmir. Görünür, xaricdəki anti-Azərbaycan dairələr indi də davamlı şəkildə Azərbaycana qarşı "qara piar" kampaniyası aparan və "fake" xəbərlər üzrə ixtisaslaşmış "The Washington Post" nəşrinin əməkdaşı vasitəsilə ölkəmizin beynəlxalq imicini ləkələməyə, onun Çin Xalq Respublikası və Amerika Birləşmiş Ştatları ilə inkişaf edən əlaqələrinə xələl gətirməyə cəhd göstərirlər. Əminliklə deyə bilərik ki, belə çirkin əməllərin müəllifləri heç vaxt öz məqsədlərinə nail ola və Azərbaycanla tərəfdaşları arasında əlaqələrə zərbə vura bilməyəcəklər.

# Hikmət Hacıyev Berlində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparıb

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 18 mart 2019-cu ildə Almaniyanın paytaxtı Berlinə işgüzar səfər edib.**



Azərbaycanın Almaniyadakı Səfirliyindən Trend-ə verilən məlumata görə, H.Hacıyev səfər çərçivəsində Federal Kanslerin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Yan Heker, Federal Prezident Administrasiyasının Xarici siyasət idarəsinin rəisi Tomas Baqqer və Almaniyanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili, səfir Mixael Zibertlə görüşlər keçirib.

H.Hacıyev, eyni zamanda Almaniyanın xarici siyasət üzrə akademik dairələri ilə keçirilən dəyirmi masada iştirak edib, həmçinin Almaniya Bundestaqının nəzdindəki Alman Parlament Cəmiyyətində Xocalı soyqırımının ildönümü ilə bağlı təşkil olunan 7-ci "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik. Almaniya-Azərbaycan əməkdaşlığının perspektivləri" simpoziumuna qatılıb.

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə geniş fikir mübadiləsi aparılıb.

H.Hacıyev ölkəmizin mürəkkəb geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütdüyünü, işğalçı Ermənistan istisna olmaqla, öz qonşuları ilə mehriban qonşuluq münasibətləri yaratdığını, regionda beynəlxalq əməkdaşlığın əsasını qoyduğunu vurğulayıb, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyində rolu, həyata keçirdiyi nəhəng regional layihələr, o cümlədən Cənub Qaz Dəhlizinin icrası, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, eləcə də bu layihələrin və Azərbaycanın çoxvektorlu xarici siyasətinin regionda sülh, sabitlik, inkişaf və əməkdaşlığa verdiyi töhfələr barədə məlumat verib. O, həmçinin Ermənistanın hərbi təcavüzünün nəticələri, münaqişənin sülh yolu ilə həlli prosesinin gedişatı, eləcə də Ermənistanın yeni rəhbərliyindən olan gözləntilərimizi həmsöhbətlərinin diqqətinə çatdırıb.

Görüşlərdə Azərbaycan və Almaniya arasında müxtəlif sahələrdə mövcud olan qarşılıqlı maraqlara söykənən konstruktiv əməkdaşlıq məsələləri, Almaniyanın federal kansleri Angela Merkelin ötən ilin avqustunda Azərbaycana səfərinin ikitərəfli münasibətlərdə yaratdığı yeni dinamika, Almaniyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair tutduğu ədalətli mövqe və münaqişənin həlli prosesinə dəstək imkanları, eləcə də ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanlar barədə ətraflı söhbət aparılıb. Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın regiondakı etibarlı tərəfdaşı, o cümlədən əsas iqtisadi tərəfdaşı adlandırıb, ölkəmizdə hökm sürən multikulturalizm və dini tolerantlıq mühitini yüksək qiymətləndirib və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları alqışlayıblar.

H.Hacıyevin Berlində keçirdiyi görüşlərdə, həmçinin Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov və səfirliyin əməkdaşı Vüqar Qafarov iştirak ediblər.

*Əli Əhmədov:*

# Əli İnsanov əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən etməyə hazırdır

## Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-icra katibi Əli Əhmədovun www.yap.org.az saytına müsahibəsi

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov özünün facebook səhifəsində (https://www.facebook.com/ Ali.C.Ahmadov/posts/302733670416195?__tn__=K-R) "Prezidentin humanistliyi və Əli İnsanova verilən şans" sərlövhəli yazısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son əfv Sərəncamı və nəticələri barədə mövqeyini ifadə etmişdir. **www.yap.org.az** saytı Əli Əhmədovun "Prezidentin humanistliyi və Əli İnsanova verilən şans" sərlövhəli məqaləsində toxunduğu mövzunun aktuallığını və siyasi yükünü nəzərə alaraq öz oxucu auditoriyasına təqdim edir:



*- Açığını deyim, azadlıqdan məhrum edilmiş keçmiş səhiyyə naziri Əli İnsanovun Prezidentin əfv Sərəncamına salınması mənim üçün tamamilə gözlənilməz oldu. Sonrakı müşahidələrim göstərir ki, onun azadlığa çıxmasına belə reaksiya tək mənə mənsub deyil. Çoxları bu cür düşünür. Söhbət əsla qeyri-humanistlikdən getmir və gedə bilməz. Hər bir azərbaycanlı hörmətli Prezident İlham Əliyevin humanizmini yüksək qiymətləndirir, o cümlədən onun müxtəlif dövrlərə təsadüf edən çoxsaylı əfv aksiyalarına böyük dəyər verir. Dövlət başçısının humanist dəyərlərə sahib olması həqiqətən əvəzolunmaz nemətdir və insanlar onun böyük faydasını görürlər. Xalqımızın əziz bayramı Novruz ərəfəsində yüzlərlə ailənin sevincinin qazanılması məhz elə Prezidentin böyük humanizminin nəticəsidir. Elə adam tapmaq mümkün deyildir ki, böyük əfv Sərəncamına görə Prezidentə minnətdarlığını ifadə etməsin. Çünki törətdiyi əməllərə görə qanuni əsaslarda azadlıqdan məhrum edilmiş insanları əvf etmək müstəsna olaraq Prezidentin səlahiyyətindədir. Elə buna görə də kimliyindən, siyasi düşüncəsindən və s. baxışlarından asılı olmayaraq azadlığa çıxanların hamısı Prezidentin humanist addımını lazımınca qiymətləndirə bildi. Daha doğrusu, malik olduğu insani keyfiyyətləri nümayiş etdirmiş oldu.*

*Lakin bir nəfər istisnadır. Keçmiş səhiyyə naziri Əli İnsanov azadlığa çıxan kimi ona azadlığı bəxş etmiş Azərbaycan Prezidentinə təşəkkür etmək əvəzinə fərqli ünvanlara üz tutmağa üstünlük verdi. Beləliklə də, adi mənəvi insani dəyər anlayışına formal da olsa əməl etməyə lüzum görmədi. Prezidentin böyük humanizmi əvəzində sadəcə minnətdarlıq etmək kimi insani borcunu ödəməyi bacarmadı. Əlbəttə, bu da bir əxlaqdır və açığını deyim heç də müsbət keyfiyyət kimi qiymətləndirilə bilməz. Məsələnin mahiyyətinə gəldikdə, mənim bildiyimə görə, əsl həqiqət bundan ibarətdir ki, keçmiş səhiyyə naziri Əli İnsanovun azadlığa çıxarılmasını, onun özünün dediyinin tam əksinə olaraq, heç bir beynəlxalq təşkilat xahiş etməyib və bu mənada onun bəzi xarici dövlətlərə və beynəlxalq təşkilatalara minnətdarlıq etməsi, yumşaq desək, tamamilə yersizdir. Korrupsiya və vəzifə səlahiyyətlərini aşmaqda suçlanaraq azadlıqdan məhrum edilən birisini müdafiə etmək heç bir beynəlxalq təşkilatın ağlına belə gəlməz. Əli İnsanovun azadlığa çıxması məhz elə haldır ki, o, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və böyük humanizmi sayəsində reallaşıb. Bunu bilməmək, qiymətləndirməmək nəinki səhvdir, həm də hesab edirəm ki, böyük qəbahətdir. Onu da qeyd edim ki, bu fikri çoxları bölüşür.*

*Əli İnsanov hər dəfə ciddi suçlarına görə qanunla cəzasını alıb. Mən onun əməllərinə hüquqi qiymət vermək istəmirəm. Hüquqi qiymət məhkəmə tərəfindən verilir. Ancaq onun suçunun mənəvi tərəfi də var. Bunun da adı Heydər Əliyev yoluna xəyanətdir. Azadlığa çıxan kimi verdiyi bəyanatlar deməyə əsas verir ki, o, əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən etməyə hazırdır. Heydər Əliyev yoluna sadiq olan insanlar bu xəyanəti ona bağışlamırlar və heç zaman bağışlamayacaqlar.*

*Əli İnsanovun digər səhvi özünü Qərbi Azərbaycanlıların ağsaqqalı elan etməsidir. Açığı, sözügedən çoxsaylı toplum heç zaman onu özünə ağsaqqal seçməyib. Zamanında Qərbi Azərbaycanlıların lideri Heydər Əliyev idi, indi isə Azərbaycan Prezidenti İlham Əliyevdir. Azərbaycan xalqının lideri sözügedən toplumun da şəksiz lideridir. Qərbi Azərbaycan əsilli insanlar Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər, onu qətiyyətlə müdafiə edirlər, yolunda və uğrunda hər cür fədakarlıq göstərməyə hazırdırlar. Bir də ki, o insanlar mövqeyini, dövlətə və dövlətçiliyə bağlılığını heç zaman dəyişmirlər və dəyişmək fikrində deyillər. Xırda hisslər, cılız ambisiyaçılıq onlara xas deyil və heç zaman xas olmayıb. Onlar üçün ən böyük sevinc və mənəvi qida mənbəyi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın daha da çiçəklənməsi, qüdrətinin artması, insanların rifahının yaxşılaşmasıdır.*

*Prezident İlham Əliyev böyük humanistliyini göstərdi. Növbədə Əli İnsanovun Prezident humanistliyinin mahiyyətini və miqyasını dərk etməsidir. Prezidentin əfvi Əli İnsanov üçün ciddi şansdır. Bu şansı necə qiymətləndirmək onun işidir. İstərdik ki, Əli İnsanov olub keçənlərdən düzgün nəticə çıxarsın. Vaxtilə dəfələrlə sədaqət andı içdiyi və onu yüksək dövlət postuna - səhiyyə naziri vəzifəsinə təyin etmiş Heydər Əliyevin xatirəsinə hörmət əlaməti olaraq onun məzarını ziyarət edib, çiçəklər qoysun. Xalqımızın çoxəsrlik ənənəsinə uyğun olaraq onun belə bir hərəkəti Novruz bayramında çox yerində olardı.*

*Əli Əhmədov:*

# Ölkə vətəndaşlarının rifahı həmişə dövlətimizin başçısının diqqət mərkəzindədir

**Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-icra katibi, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində Novruz bayramı münasibəti ilə keçirilən tədbirdə iştirak edib.**



YAP icra katibinin müavinləri - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov və digərlərinin də iştirak etdikləri tədbirdə Əli Əhmədov, eyni zamanda, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Novruz bayramı münasibətilə müəssisənin sakinlərini təbrik edib, onlara xoş arzularını çatdırıblar.





Ə.Əhmədov ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu sosial siyasətin cənab Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyini, bu siyasətin mərkəzində insan amilinin dayandığını vurğulayıb: “Bizim üçün ən böyük dəyər insandır, Azərbaycan Respublikasının vətəndaşıdır. Bu, həm də dövlətimizin ən böyük sərvətidir. Sizin rifahınız həmişə dövlətimizin diqqət və qayğısı ilə əhatə edilib. Bu onunla əlaqədardır ki, ölkə vətəndaşlarının rifahı həmişə dövlətimizin başçısının diqqət mərkəzindədir”.

Ə.Əhmədov bildirib ki, bunun nəticəsi olaraq, ölkədə dinamik iqtisadi inkişaf prosesləri vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə olunması ilə nəticələnir. 2019-cu ilin ötən dövründə dövlət başçısının imzaladığı Fərman və sərəncamlar da əhalinin sosial müdafiəsinin gücləndirilməsində inqilabi addımlardır: “İnsana qayğı göstərməkdən ali dəyər yoxdur. Bir müddət öncə Prezident İlham Əliyev tərəfindən bütün kateqoriyalardan olan insanların rifahının yaxşılaşdırılması üçün sərəncamlar imzalandı. Dövlət imkanları çərçivəsində vətəndaşların daha yaxşı yaşaması istiqamətində əlavə tədbirlər görür. Dövlət başçısının sərəncamları ilə əmək pensiyası, minimum əməkhaqqı, müavinətlər artırıldı. Ümumiyyətlə, vətəndaşlara verilən bütün müavinətlər artırılıb. Azərbaycanın iqtisadi imkanları artıqca bundan sonra da Prezident İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atılacaq. Dövlətin imkanları vətəndaşların rifahının yaxşılaşdırılmasına sərf edilir. Azərbaycan hökuməti istəyir ki, vətəndaşlar yaxşı yaşasın. Vətəndaşın yaşayışı, insanların rifahının yaxşılaşdırılması həmişə dövlətin diqqət mərkəzində olub. Bizim üçün ən böyük dəyər insandır”.

Baş nazirin müavini, həmçinin qeyd edib ki, dövlət himayəsində yaşayan tənha yaşlı və ahıl insanların normal yaşayış şəraiti, onların etibarlı sosial müdafiəsi təmin olunur: “Hesab edirəm ki, bu da ondan ötəridir ki, sizlərin güzəranı yaxşı keçsin. Prezident İlham Əliyevin tapşırığına əsasən, sizlər xüsusi diqqət mərkəzindəsiniz. Əgər hər hansı bir ehtiyac olarsa, dövlətimiz tərəfindən bu ehtiyac da ödəniləcək. Bu, Prezident İlham Əliyevin, ilk növbədə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, eyni zamanda bizlərə verdiyi tapşırığıdır”.

Ə.Əhmədov yaşlı nəslə, ahıllara həmişə diqqət və qayğı göstərilməsi işlərində YAP-ın da fəal iştirak etdiyini, partiyanın tez-tez bu müəssisədə görüşlər keçirdiyini və burada yaşayanlara öz dəstəyini göstərdiyini deyib. Qeyd edib ki, burada yaşayan insanlar vaxtilə həyatlarını Azərbaycanın inkişafına həsr ediblər, onların arasında müəllim və digər ixtisasdan olan şəxslər bugünkü nəslin yetişməsində öz fədakarlıqlarını əsirgəməyiblər: “Beləliklə də sizlərin də əməyi nəticəsində bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilib. Sizlərin əməyini heç kəs - nə dövlətimizin başçısı, nə də ki digərləri unudub. Çünki siz zəhmətinizlə gələcək nəsillər üçün böyük fundament yaradıbsınız. İndi isə bu funksiyanı sizlərdən sonrakı nəsillər davam etdirir. Sizlər isə dövlətimizin qayğısı ilə əhatə olunmusunuz.”





YAP Sədrinin müavini-icra katibi, eyni zamanda, Novruz bayramının xalqımızın həyatındakı roluna toxunub, onun yaşlı nəsil üçün də böyük əhəmiyyət daşıdığına diqqəti çəkib.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən bu müəssisədə yaşayan ahıl insanlara daim diqqət və qayğı ilə yanaşılıb və cənab Prezident İlham Əliyevin uğurlu sosial siyasəti bütün həssas qruplar kimi, tənha ahıl vətəndaşların da rifah halının yaxşılaşdırılması tədbirlərinin ildən-ilə güclənməsinə səbəb olub. Son illərdə dövlət başçısının tapşırığı ilə pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində müasir tələblərə uyğun şərait yaradılmaqla, burada yeni ikinci korpus tikilib. Cənab Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva həmin korpusun açılışında iştirak edərək, buradakı yaşlı, ahıl insanlarla görüşüb, onlarla həmsöhbət olublar. Bu da ahıl insanlara yüksək qayğının, hörmət və ehtiramın bir nümunəsidir.

Nazir Prezident İlham Əliyev tərəfindən cari ildə imzalanan Fərman və sərəncamların həssas qruplara dövlət qayğısının əhəmiyyətli şəkildə artmasına imkan verdiyini vurğulayıb. Bildirib ki, eyni zamanda, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiya təminatının yaxşılaşdırılması, pensiyaların ciddi şəkildə artırılması istiqamətində əhəmiyyətli addımlar atılıb: “Əlbəttə, sosial təminat sistemi mütəmadi təkmilləşdirməyə ehtiyacı olan sistemdir və daim təkmilləşdirilir, inkişaf etdirilir. Nəticədə bu, keyfiyyətin yüksəldilməsi ilə ehtiyacı olan şəxslərin güzəranının daha da yaxşılaşdırılmasına xidmət edir. Həyata keçirilən bu mühüm sosial müdafiə tədbirləri vətəndaşlarımızın Novruz bayramını daha nikbin duyğularla qarşılamasına, bayram əhval-ruhiyyəsinin xeyli artmasına səbəb olub. Bütün bunlar bir daha göstərir ki, dövlət başçısının apardığı siyasət Azərbaycan vətəndaşının, o cümlədən yaşlı, ahıl insanların layiqli yaşayış səviyyəsinin təminatına xidmət edir”.

Tədbirdə, həmçinin 230 nəfərin yaşadığı müəssisənin sakinləri ürək sözlərini bildirərək, onlara göstərilən yüksək qayğıya, sosial müdafiə tədbirlərinin, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımlara, eyni zamanda, dövlətin himayəsində yaşayan yaşlı, ahıl insanlar üçün yaradılan müasir, rahat şəraitə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

**Ceyhun Piriyev, Vüsal Cahanov (foto), *“İki sahil”***

# SOCAR-da Liviya Milli Neft Korporasiyasının sədri ilə görüş





SOCAR-ın prezidenti Rövnəq Abdullayev Liviya Milli Neft Korporasiyasının sədri Mustafa Sanallanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. SOCAR-ın prezidenti R.Abdullayev Azərbaycanda həyata keçirilən neft strategiyası, SOCAR-ın fəaliyyəti, qlobal və regional əhəmiyyətli layihələri haqqında qonaqlara ətraflı məlumat vermişdir. Həmçinin qeyd edilmişdir ki, bir zamanlar Liviyalı tələbələr Azərbaycanda neft ixtisasları üzrə təhsil almışlar, bu gün də həmin ənənə davam etdirilə bilər. SOCAR-ın Bakı Ali Neft Məktəbi bu sahədə bütün imkalara malikdir.

Liviya Milli Neft Korporasiyasının sədri Mustafa Sanalla səmimi qəbul üçün SOCAR rəhbərliyinə minnətdarlığını bildirmiş, Azərbaycanın təcrübəsinin onlarda hər zaman maraq doğurduğunu vurğulamışdır. Görüşdə neft sənayesinin müxtəlif istiqamətləri sahəsində əməkdaşlığın prioritetləri müzakirə olunmuş, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

SOCAR haqqında hazırlanmış təqdimat qonaqlarda böyük maraq yaratmışdır.

# Demokratik dəyərlərə vahid yanaşma olarsa...

## ABŞ Dövlət Departamentinin son hesabatı bir daha bu çağırışa əsas verir ki, dünyaya “demokratiya dərsi” keçən ölkələrin özləri bu dərsdən bəhrələnsələr daha yaxşı olar




Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında bu mühüm məqam hər zaman xüsusi yer tutur ki, siyasi islahatlar iqtisadi islahatlarla paralel şəkildə aparılmalıdır ki, Azərbaycanın dayanıqlı inkişafı təmin edilsin. Bu gerçəklik ayrı-ayrı ölkələrdə iqtisadi, yaxud demokratik inkişafın birtərəfliliyi fonunda təsdiqlənir. Bu baxımdan ki, ölkələr arasında əməkdaşlıq əlaqələrinin qurulmasında və möhkəmləndirilməsində də demokratik inkişaf əsas faktorlardan biri kimi önə çəkilir. Belə ki, hər bir dövlət əməkdaşlıq əlaqələri qurmaq istədiyi ölkədə demokratiyanın əsas tələblərindən olan ictimai-siyasi sabitliyin, qanunun aliliyinin təmin edilməsinə xüsusi diqqət göstərir. Ötən il Azərbaycanla Avropa İttifaqı arasında imzalanan “Tərəfdaşlığın prioritetləri” adlı sənəddə də bu kimi məqamlar xüsusi qeyd olunmuşdur.

İnsan amili dövlətimizin siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamız insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafı üçün etibarlı zəmin yaradır. Sənəddə əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Bu günə qədər Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi ilə bağlı üç dəfə keçirilən ümumxalq səsverməsinə çıxarılan məsələlərdən ən ümdəsi məhz insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi oldu.

Son 15 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu hər sahədə uğurla davam etdirən Prezident İlham Əliyev daim çıxışlarında demokratikləşmə prosesinin bir şüar, niyyət olmadığını, ölkənin hərtərəfli inkişafının əsası olduğunu önə çəkərək, bu sahədə həyata keçirdiyi biri-birindən əhəmiyyəli islahatlarla Azərbaycanın beynəlxalq aləmdə demokratik ölkə imicinin möhkəmləndirilməsinə əsas yaradır. Bu gün böyük inam və qətiyyətlə qeyd edirik ki, Azərbaycanın demokratiya təcrübəsi təqdir olunur və nümunə göstərilir. Əsas budur ki, reallığı olduğu kimi qəbul edib, düzgün dəyərləndirmə aparmağı bacaraq. Bəzi beynəlxalq hüquq müdafiə təşkilatlarının Azərbaycanın demokratik inkişafına qara eynəkdən baxmaları qərəzdən, uğurlarımızı həzm etmək gücündə olmamalarından irəli gəlir.

Əlamətdar bayram günləri ərəfəsində imzalanan əfv sərəncamları, qəbul olunan Amnistiya aktları da ölkəmizin demokratik inkişafının, insan hüquq və azadlıqlarının qorunmasının bariz nümunəsidir. Şəxsiyyət azadlığına humanist münasibətlərin formalaşdığı ölkəmizdə ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından 2003-cü ilə qədərki dövrə qədər 32 əfv sərəncamı imzalanıb, 7 Amnistiya aktı qəbul olunub. Son 15 ildən artıq dövrdə isə 30-dan çox əfv sərəncamı imzalanıb, 4 Amnistiya aktı qəbul olunub. Bu sənədlər əsasında ümumilikdə on minlərlə məhbus azadlığa qovuşub. Dövlətimizin başçısı İlham Əliyevin 16 mart 2019-cu il tarixli “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncamı da bu silsilədəndir. Sərəncam ümumilkdə 431 nəfərə şamil olunmuşdur. Diqqəti çəkən məqamlardan biri ağa qara deməyə adətkar olan xarici və daxili bədxahlarımızın bu mühüm sənədə də qara eynəkdən baxmaları, öz maraqlarına uyğun şərh etmələridir. Təbii ki, bu kimi yanaşmalar onların fərziyyələrlə yaşamalarına işarədir.

Bir mühüm məqamı da qeyd edək ki, təkmilləşmə, yeniləşmə dövlət siyasətinin əsasını təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamı da demokratik islahatların əsas tərkib hissələrindəndir. Sərəncamda da qeyd edilmişdir ki, dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir.

Göründüyü kimi, vətəndaş amilinə verilən dəyər davamlı addımlarla müşayiət olunur. Azərbaycan dövlətinin hər dövrün çağırışlarını lazımi səviyyədə yerinə yetirməsi uğurların davamlılığında əhəmiyyətli rol oynayır. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası ilə eyni zamanda “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın təsdiq edilməsində də məqsəd insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətindəki islahatların davamlılığını təmin etməkdir.

Amma dünyada cərəyan edən proseslərə diqqət yetirdikdə bu reallıq özünü qabarıq şəkildə büruzə verir ki, demokratik dəyərləndirmə maraqlara uyğun şəkildə aparılır. Bir ölkədə insan hüquq və azadlıqları kobud şəkildə pozulur, mətbuat azadlığı boğulur, bu, demokratik prinsiplərə hörmət kimi qəbul olunur, amma Azərbaycanda kiçik bir olay dərhal şişirdilərək demokratiyanın boğulması kimi şərh edilir. Maraqlı yanaşma deyilmi?

Son günlərdə ABŞ Dövlət Departamentinin 2018-ci ildə dünya ölkələrinin insan haqlarına və fundamental azadlıqlara dair hesabatında Azərbaycan haqqında qeyd olunanların heç bir hüquqi əsası yoxdur, qərəzdən başqa bir şey deyil. Ölkəmizdə demokratik inkişafa qərəzli yanaşma diqqətdən kənarda qalmır. Diqqət çəkən əsas məqam isə sənəddə əksini tapanların daxili bədxahlarımızın fikirləri ilə üst-üstə düşməsidir. Bu fakt sirr deyil ki, Azərbaycanı istəməyən xarici antiazərbaycan qüvvələr öz çirkin planlarını həyata keçirmək üçün daxili bədxahlarımızdan bir vasitə kimi istifadə edir, onlardan aldıqları məlumatları reallıq kimi təqdim etməyə çalışırlar. Amma unutmayaq ki, dünyaya demokratiya dərsi keçən bir ölkəni təmsil edən qurum belə hesabatları açıqlayarkən ciddi araşdırmalar aparmalı, müxalifətli iqtidarlı hər iki tərəfin təmsilçilərinin açıqlamarına diqqət yetirməli, ən əsası ədalət meyarını əsas götürməlidir. ABŞ Dövlət Departamentinin hesabatlarında daim ölkəmizə qarşı belə qərəzli yanaşma özünü qabarıq şəkildə büruzə verib. Lakin ABŞ-da cərəyan edən proseslərə diqqət yetirdikdə demokratik dəyərlərə hansı şəkildə dəyər verildiyi daha aydın görünür. Hesabatında Azərbaycanı mətbuat azadlığının kobud şəkildə boğulduğu ölkə kimi təqdim etməyə çalışan ABŞ Dövlət Departmantinin rəsmiləri ölkələrinə diqqət yetirsələr daha yaxşı olar. ABŞ-da jurnalist ölümü adi qəbul olunur, amma ölkəmizdə mətbuat azadlığının boğulması kimi təqdim edilir. Təəccüb doğuran açıqlama deyilmi?

İşğalçı Ermənistanda cərəyan edən prosesləri də xatırlatmaq kifayətdir ki, dünyanın ədalət meyarına hansı şəkildə yanaşdığını diqqətə çatdıraq. Amma dünya mətbuatı bu reallıqların üstündən elə sürətlə keçir ki, sanki yaşananlar demokratiyanın tələblərinə tam şəkildə “cavab verib”. Dünya dövlətləri belə ikili yanaşmaların yaratdığı problemlərdən xəbərdar olaraq, yenə də eyni addımı atmaqda davam edirlərsə, bu artıq hüquq probleminin nəinki mövcudluğunu, son həddə çatdığını ortaya qoyur.

Ölkəmizdə müqayisəolunmaz dərəcədə xırda bir məsələ baş verəndə, bunun dərhal beynəlxalq media orqanlarına çıxarıldığını bildirən dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bəzi qüvvələr Azərbaycanı antidemokratik ölkə kimi təqdim etmək üçün ciddi cəhdlər göstərirlər: “Bu bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək.” Bu fakt inkaredilməzdir ki, ölkəmizə qarşı qərəzli mövqedə dayanıb, əsassız fikirlər səsləndirən konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər ermənilərin və erməni diasporunun pulları ilə özlərinə həyat quranlardır. Bu həyatın “zənginliyini” qorumağa xidmət edən qərəzli yanaşmalara ədalətin gözü ilə baxanda onda görürsən ki, illərdir “demokratiyanın beşiyi” kimi qəbul olunan, fürsət düşdükcə nümunə göstərilən dövlətlərin özü beynəlxalq hüquq müdafiə təşkilatlarının hesabatlarında qeyri-demokratik ölkə kimi yer tutmalıdırlar.

Əbəs yerə deyilmir ki, zaman hadisələrə düzgün dəyər vermək üçün ən vacib amildir. Dünyaya “demokratiya dərsi” keçən ölkələr bu gün özləri bu dərsdən “bəhrələnmək” məcburiyyətindədirlər. Ataların bu deyimini yada salmaq məcburiyyətindəyik - Döymə taxta qapımı, döyərlər dəmir qapını. Eyni zamanda “özünə rəva bilmədiyini başqasına bilmə”. Dünyanın ikili siyasəti fonunda arxiv dövrünü yaşayan beynəlxalq hüququn norma və prinsiplərinin icra mexanizminin müəyyənləşdirilməsinin, həmçinin demokratik dəyərlərə vahid yanaşmanın zamanı çoxdan çatıb.

**Yeganə Əliyeva,**
***“İki sahil”***

# *Səfir:* Birinci vitse-prezident Mehriban Əliyevanın Parisə səfəri Azərbaycanla Fransa arasında münasibətlərin dinamik xarakter daşıdığını nümayiş etdirdi

***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfəri Azərbaycanla Fransa arasında etimadın yüksək səviyyədə olduğunu nümayiş etdirdi.***

***Bunu "PREZİDENT. Müstəqillik. Təhlükəsizlik. Rifah" videolayihəsi çərçivəsində Trend-ə açıqlamasında Fransanın Azərbaycandakı səfiri Aureliya Buşez deyib.***

Səfir qeyd edib: "Parisə həyata keçirilmiş belə mühüm səfərdən sonra Bakıya qayıtmaqdan şadam. Birinci vitse-prezident Mehriban Əliyeva Parisə yüksək səviyyəli və uğurlu səfər etdi və bu səfər Fransa ilə Azərbaycan arasında etimadın və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğunu, ikitərəfli münasibətlərimizin hərtərəfli, çoxşaxəli olduğunu nümayiş etdirdi".

Diplomat bildirib ki, Mehriban Əliyevanı Parisə Fransanın Baş naziri Eduard Filip dəvət etmişdi: "Mehriban Əliyevanın Eduard Fiiplə görüşü, həmçinin Fransanın birinci xanımı, Fransa Senatı və Milli Assambleyasının sədrləri, mədəniyyət və iqtisadiyyat nazirləri ilə yüksək səviyyəli görüş və təmasları regionun problemlərinə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə toxunmağa imkan verdi. Bu, iqtisadi əməkdaşlığımızın vəziyyətini qiymətləndirmək üçün bir imkan idi: nə edilib, qarşıda hansı işlər dayanır və nə etmək olar".

Onun sözlərinə görə, hər iki tərəf bu əməkdaşlığın dinamizmini, həmçinin iqtisadi əməkdaşlığın istifadə olunmamış potensialını vurğuladı: "Həmçinin tərəflər təhsil və mədəniyyət sahələrində əməkdaşlıq çərçivəsində əldə olunmuş böyük nailiyyətlərə görə birbirini təbrik etdi. Bakı Fransız Liseyinin, Fransa-Azərbaycan Universitetinin uğurları və məktəblərdə fransız dilinin irəliləyişi yüksək qiymətləndirildi. Həqiqətən də bu səfər fikir mübadiləsi, layihələrin və gələcək fəaliyyətin müzakirəsi üçün bir imkan oldu".

A.Buşez iqtisadi əməkdaşlığın inkişafına konkret məzmun verilməsi üçün dörd sənədin imzalandığını və bir çox digər layihələrin də müzakirə olunduğunu əlavə edib: "Azərbaycanla Fransa arasında sekulyarizm ənənəsi və qadınların rolu kimi ümumi nəzər nöqtələrinə xüsusi diqqət ayrıldı. Bu səfər münasibətlərimizin dinamik xarakterini, nə etdiklərimizi və müxtəlif sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək üçün nə edə biləcəyimizi nümayiş etdirdi".

Səfir Azərbaycanla Fransa arasılnda iqtisadi əməkdaşlığa da toxunub: "Biznesin perspektivlərinə gəldikdə, məmnuniyyətlə bildirmək istəyirəm ki, 2018-ci ildə biz ticarət dövriyyəsinin 15 faizlik artımını qeydə almışıq. Biz kifayət qədər nikbinik, çünki Fransa şirkətlərinin fəaliyyəti Azərbaycan iqtisadiyyatının geniş spektrini əhatə edir: bu şirkətlər xüsusilə iqtisadiyyatın şaxələndirilməsi və onun böyük potensialının aşkar olunmasına töhfə verməyə çalışır. Əlbəttə ki, neft-qaz sektoru böyük əhəmiyyət kəsb edən sahə olaraq qalır və mən bu məqamda "Total" şirkətinin Azərbaycanın dövlət neft şirkəti SOCAR-la 20 ildən çox davam edən uğurlu əməkdaşlığını vurğulamaq istərdim. Biz Azərbaycanı, o cümlədən SOCAR-ı etibarlı tərəfdaş kimi görürük. "Total" Azərbaycanda indikindən daha çox iş görmək niyyətindədir. Ümid edirik ki, şirkətin bütün layihələri reallaşdırılacaq".



Qeyri-neft sektorundan danışan diplomat vurğulayıb ki, bu sahənin iqtisadiyyatda payı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan şaxələndirmə siyasəti sayəsində artır: "Fransa şirkətləri nəqliyyat kimi prioritet sektorlarda çox yaxşı təmsil olunub: dəmiryol nəqliyyatında "Alstom", metro - "Thales", avtobus - "Iveco" və aeroportlarda "Thales". Azərbaycanın regional nəqliyyat qovşağı kimi böyük potensialı var və Fransa şirkətləri bu məqsədə nail olunmasına töhfə vermək üçün fəaliyyətlərini gücləndirməyə hazırdır. Artıq Fransa İnkişaf Agentliyi dəmiryol nəqliyyatı ilə bağlı layihələri dəstəkləyir. Bundan başqa, kənd təsərrüfatı kimi perspektiv əməkdaşlıq sahələri də mövcuddur. Biz çox şadıq ki, Azərbaycanın kənd təsərrüfatı naziri artıq bir neçə dəfə Fransaya səfər edib. Kənd təsərrüfatı və aqrobiznes sahəsində əməkdaşlığımızın inkişaf edəcəyinə ümid edirik".

Ətraf mühit sahəsinə gəlincə, A.Buşez deyib ki, Bakı gözəl və müasir şəhərdir, lakin burada su təchizatı sistemləri və ətraf mühitlə bağlı problemləri həll etmək vacibdir: "Fransanın "Suez" şirkəti Azərbaycanda bu sahədə artıq fəal çalışır. Şirkət, məsələn, çirklənmənin qarşısının alınması və su resurslarının idarə olunmasının yaxşılaşdırılması proqramları çərçivəsində daha böyük işlər görməyə səy göstərir. Həmçinin Azərbaycanda turizm çiçəklənir ki, bu da təbiidir, çünki ölkənin şəhərləri çox gözəldir, bölgələri isə turizmin inkişafı üçün çox yüksək potensiala malikdir".

O bildirib ki, digər sahələrdə, o cümlədən kosmos sferasında əməkdaşlığı daha da inkişaf etdirmək olar: "Biz "Azərkosmos" tərəfindən işlənən proqramların, o cümlədən "Azərkosmos"un "Airbus"la əməkdaşlıq çərçivəsində hazırladığı kəşfiyyat peyki üzrə proqramın uğurlu olduğunu görürük. Bu, gələcəkdə inkişaf etdirməli olduğumuz əməkdaşlıq sahələrinə yalnız bir neçə nümunədir. Hər bir şirkətin öz layihəsi var, onların hər biri burada layihələrini inkişaf etdirmək və fəaliyyətini genişləndirmək istərdi. Eləcə də Fransa şirkətləri Azərbaycanda, yerli bazarda iştiraka çox maraq göstərir. Sizin gözəl ölkənizdə fantastik potensial var".

A.Buşez qeyd edib ki, bu potensial Azərbaycan hakimiyyəti tərəfindən aparılan əlverişli siyasəti, o cümlədən son maliyyə islahatlarını, kiçik və orta sahibkarlığa dəstək tədbirləri gücləndirir: "İqtisadi əməkdaşlıq Azərbaycanın Birinci vitse-prezidentinin hər bir həmsöhbəti ilə müzakirə etdiyi mövzulardan biri idi. Hər dəfə Fransa və Azərbaycan arasında daha dərin və genişləndirilmiş əlaqələrin təmin olunması üçün nə edə biləcəyimiz barədə fikir mübadiləsi aparıldı".

# Kimsəsiz və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Novruz şənlikləri keçirilib



**Heydər Əliyev Fondunun təşəbbüsü ilə martın 19-da Talassemiya Mərkəzində, Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində, Suraxanı rayonundakı 2 saylı, Nizami rayonundakı 1 saylı və Xətai rayonundakı 3 saylı uşaq evlərində Novruz bayramı münasibətilə şənliklər təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, sosial layihələri, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan və kimsəsiz uşaqlar üçün mütəmadi olaraq bayram şənlikləri keçirir. Ənənəyə sadiq qalan Fond bu təbəqədən olan uşaqlara növbəti dəfə sevinc bəxş etdi. İlaxır çərşənbəsi günündə təşkil edilən bayram şənliklərində balacalara əyləncəli proqramlar təqdim olundu. Onlara Novruz bayramının adət-ənənələri barədə məlumat verildi, viktorina və müxtəlif oyunlar keçirildi. Uşaqların sevincini bölüşmək, daim onların yanında olmaq kimi missiyanı üzərinə götürən Heydər Əliyev Fondunun təşkil etdiyi növbəti aksiya sayəsində balacalar daha birmənalı və yaddaqalan gün yaşadılar.

Tədbirlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gələcəyimiz olan uşaqlara diqqət və qayğısından danışıldı. Həmçinin Fondun vitse-prezidenti Leyla Əliyevanın valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla mütəmadi şəkildə görüşdüyü, onların təlim-tərbiyəsi ilə maraqlandığı, uşaqlar və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili üçün təşkil edilən müxtəlif tədbirlər və proqramlarda onlarla birgə olduğu qeyd edildi.

Bayram şənlikləri uşaqların rəngarəng çıxışları ilə davam etdi. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar da öz məharətlərini nümayiş etdirdilər, şeirlər söylədilər, mahnılar oxudular, səhnəciklər göstərdilər.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən bayram süfrəsi açıldı.

Şənliklərdə çıxış edən valideynlər, tərbiyəçi müəllimlər bu xeyirxah işlərin himayədarı olan Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban Əliyevaya, vitse-prezidenti Leyla Əliyevaya minnətdarlıqlarını bildirdilər.

## *Filip Qotye:* Azərbaycanın Birinci vitse-prezidentinin Fransa səfəri ikitərəfli əlaqələrin inkişafına mühüm töhfələr verəcək




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfəri iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının, eləcə də ikitərəfli münasibətlərin inkişafı və möhkəmlənməsi perspektivlərinin mövcudluğunu bir daha xatırlatdı. Bu səfər çərçivəsində çox mühüm sazişlər - "Thales" şirkəti və Bakı Metropoliteni, Mərkəzi Bank və Rotschild & Cie bankı, eləcə də Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi (AFD) arasında sazişlər imzalandı. Çox şadıq ki, MEDEF International ilə sıx əlaqələri olan Fransa İnkişaf Agentliyi (AFD) Azərbaycanla işləyəcək.

Bu fikirləri MEDEF Internationalın baş direktoru Filip Qotye AZƏRTAC-a müsahibəsində söyləyib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfərinin əhəmiyyətini xüsusi vurğulayan F.Qotye 2019-cu ilin ikitərəfli əlaqələrin inkişafı baxımından zəngin il olacağından xəbər verdiyini bildirib.

"Azərbaycanla sıx və zəngin əlaqələr qurulmasını arzulayırıq. Ümid edirik ki, tezliklə Fransa tərəfindən Azərbaycana yüksək səviyyəli səfərlər reallaşacaq. MEDEF İnternational olaraq, biz ikitərəfli iqtisadi əlaqələrin inkişafına maksimum töhfələr verməyə çalışacağıq. Digər layihələrlə yanaşı, istərdik ki, Bakıya fransız şirkətləri nümayəndələrinin ən yüksək səviyyəli tarixi səfərini də reallaşdıraq. Bu barədə tezliklə rəsmi məlumat verəcəyik", - deyə F.Qotye bildirib.

Baş direktor Azərbaycanda öz bürolarını açmaq istəyən yeni müəssisələr və sərmayəçilərin iştirakı ilə əlaqələrin şaxələndirilməsinin, eləcə də Avropa bazarlarına məhsullarını çıxaracaq Fransa-Azərbaycan birgə müəssisələrinin yaradılmasının çox vacib olduğunu diqqətə çatdırıb.

F.Qotye deyib: "Çalışmalıyıq ki, azərbaycanlı sərmayəçiləri də Fransaya cəlb edək. Ümid edirəm ki, 2019-cu il ikitərəfli əlaqələr sahəsində ən zəngin, məhsuldar il olacaq".

# Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi

**Dünən "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak edib.**

Milli geyimli qız Ali Məclisin Sədrinə səməni təqdim edib. El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək deyib: "Bu gün Oğuz yurduna Novruz gəlir. El-obaya yeni il qədəm qoyur. Ötən il də böyük əməllərlə yadda qaldı. Naxçıvanımız İslam mədəniyyətinin və Azərbaycan gənclərinin paytaxtı kimi möhtəşəm tarix yazdı; qədim Oğuz igidləri yurdumuzun bir parçası olan Günnütdə bayrağımızı yenidən dalğalandırdılar. Qorqud babanız deyir ki, uğurunuz davamlı olsun! Vuran əlləriniz var olsun! Adət-ənənələrimizi özündə yaşadan Novruz bayramını elimiz-obamız neçə illərdir ki, əmin-amanlıq içində qarşılayır. Düşərli olsun! Ey bayram libaslı Naxçıvanım! Qazanılan uğurların dillər əzbəridir. Hünərvər oğul və qızların abad olmuş ulus-oymaqda toy-büsat qurur, bugünkü xoş növrağınla fəxr edirlər. Qorqud atanız deyir ki, bu uğurların bir səbəbkarı, bir yaradanı var. Ömrü uzun olsun! Yaradan qollarınız var olsun! Siz xalqı yaşadırsınız, xalq da Sizi yaşadacaqdır!"





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Novruz bayramı və ilin axır çərşənbəsi olan Od çərşənbəsi münasibətilə muxtar respublika əhalisini, şəhid ailələrini, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrinin şəxsi heyətlərini təbrik edib, xoş bayram ovqatı arzulayıb.

Ali Məclisin Sədri deyib: Novruz bayramı göstərir ki, Azərbaycan xalqı nə qədər böyük tarixə və zəngin mənəvi irsə sahibdir. Ulu öndərimiz Heydər Əliyev xalqımızın tarixi yaddaşının, Novruz ənənələrinin yaşadılması qayğısına qalaraq demişdir: "Novruz bayramının müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir".

Bu gün Ulu Öndərimizin milli dəyərlərimizin yaşadılması ilə bağlı müəyyənləşdirdiyi yol uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müstəqil Azərbaycan və onunla birlikdə milli-mənəvi dəyərlərimiz də dünyada tanınır və qəbul edilir. Xalqımızın milli dəyərləri içərisində Novruz bayramı mühüm yer tutur. Bu bayramın ən böyük üstünlüklərindən biri xalqımızın quruculuq əzmini yaşatmasıdır. Hər il olduğu kimi, bu il də Novruz bayramı ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq və iqtisadi yüksəliş şəraitində qeyd olunur. Ötən il muxtar respublikada həyata keçirilən tədbirlər dayanıqlı inkişafı təmin etmiş, bütün makroiqtisadi göstəricilər üzrə artım əldə edilmişdir. Bu gün qeyd etmək xoşdur ki, sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar əhali gəlirlərinin artmasına, məskunlaşmaya və demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı əvvəlki illərlə müqayisədə artaraq 456 min nəfərdən çox olmuşdur.

"Şübhəsiz ki, insan əməyi, zəhməti olmadan bu inkişaf mümkün deyil", - deyən Ali Məclisin Sədri muxtar respublikamızın inkişafına öz töhfəsini verənlərin hamısına təşəkkürünü bildirib.

Ali Məclisin Sədri deyib: "Builki Novruz bayramını Naxçıvanın muxtariyyət qazanmasının 95 illiyi və muxtar respublikada elan olunmuş "Ailə təsərrüfatları ili"ndə qeyd edirik. Əminik ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət və bu yolun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi ölkəmizi və onun Naxçıvan Muxtar Respublikasını daha böyük tərəqqiyə qovuşduracaq, dövlət müstəqilliyimiz və sabitlik daha da möhkəmlənəcəkdir".

Ali Məclisin Sədri bir daha tədbir iştirakçılarının Novruz bayramını təbrik edib və bayram tonqalını yandırıb.






Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada xalq yaradıcılığının öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması istiqamətində mühüm işlər görülüb. Novruz bayramında "Xalq yaradıcılığı günləri"nin keçirilməsi də mühüm əhəmiyyətə malikdir. Builki Novruz bayramında da musiqi kollektivlərinin və xalq sənətkarlarının iştirakı, Novruz adətlərimizin və milli dəyərlərimizin nümayişi böyük marağa səbəb olub.



Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Uşaq Filarmoniyası kollektivlərinin ifasında "Naxçıvan" rəqsi təqdim olunub.

Naxçıvan şəhər sakinləri Bəyməmməd Ağaməmmədov və Gülsüm Novruzova Ali Məclisin Sədri ilə görüşərək bayram təbriklərini çatdırıblar.

Musiqi kollektivlərinin ifasında təqdim olunan "Doğma yurdum Naxçıvanım" mahnısı və "Qarabağ" yallısı alqışlarla qarşılanıb.

Muxtar respublikanın beynəlxalq titullu şahmatçıları Ali Məclisin Sədrini bayramlar münasibətilə təbrik edib, xatirə şəkli çəkdiriblər.

Culfa rayon Bənəniyar kənd sakini Həsənalı Əsgərov deyib: Ölkəmizin hər yerində - şəhərlərdə, kəndlərdə bayramlar yüksək əhval-ruhiyyə ilə qeyd olunur. Sabitlik şəraitində yaşamaq, işləmək ən böyük xoşbəxtlikdir. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanı dünyada tanıdır, ölkəmiz inkişaf edir. Azərbaycanın bir hissəsi olan doğma Naxçıvanımız da inkişaf edir, müasirləşir. Azərbaycan dünyanın, Naxçıvan isə Azərbaycanın parlayan günəşidir.

Azyaşlı Vüqar Əmiraslanov Ali Məclisin Sədrinə təbriklərini, xoş arzu və diləklərini çatdırıb.

Naxçıvan Musiqi Kollecinin "Sazçalanlar" ansamblı "Ovşarı" aşıq havası üstündə bayram təbriklərini çatdırıb.

Naxçıvan Dövlət Universitetinin tələbələri - Sima Bayramova, Nərmin Abuzərova, Aytən Allahverdiyeva, Səbinə Babayeva, Təbrizə Bayramova, Ellada Bayramova və Aysu Nağısoy Ali Məclisin Sədri ilə görüşüblər. Tələbələr muxtar respublikada ali təhsil almaq üçün yaradılan şəraitə, gənc nəslin dəyərlərimizə, adət-ənənələrimizə sədaqət ruhunda böyüdülməsi sahəsində görülən işlərə görə minnətdarlıq ediblər. Ali Məclisin Sədri tələbələrlə xatirə şəkli çəkdirib.

Naxçıvan şəhər sakini Gövhər Bağırova deyib: Bayramlar firavanlıqdır, sevincdir, xoş niyyətdir. Biz - muxtar respublika sakinləri xoşbəxtik. Çünki firavanlıq şəraitində yaşayır, bayramları əmin-amanlıq şəraitində, xoş niyyətlərlə qeyd edirik.

Bayram tədbirində Naxçıvan Musiqi Kollecinin "Naxçıvanqala" ritm qrupu da maraqlı kompozisiya ilə iştirak edib.

Məktəbli Dərya Qənbərova Novruz bayramına həsr olunmuş şeir söyləyib.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə şənliklər keçirilib.

# “BOS Şelf” sosial layihələri uğurla davam etdirir



**Bu gün ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində insan amili dayanır. Vətəndaşların sosial rifahının, həyat səviyyəsinin daha da yaxşılaşdırılması hər zaman diqqət mərkəzindədir.**

“Star Gulf FZCO” və SOCAR tərəfindən yaradılan “BOS Şelf” şirkəti bu gün öz fəaliyyətini uğurla davam etdirir. Şirkət rəhbərliyi tərəfindən işçilərin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Hazırda şirkətin işçi heyəti təxminən 3 min nəfərdən ibarətdir. Onların 95 faizi Azərbaycan vətəndaşıdır. “BOS Şelf” işçilərinin peşəkarlıq səviyyəsini beynəlxalq standartlar səviyyəsinə qaldırmaq üçün təlimlərin keçirilməsinə böyük əhəmiyyət verir. Bu təlimlərə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu (BDÖZ) ərazisində yaradılan və fəaliyyət göstərən ixtisaslaşdırılmış təlim mərkəzlərində qaynaqçıların və quraşdırıcıların kvalifikasiyalarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi daxildir.

“BOS Şelf” şirkətinin rəhbərliyi istehsal fəaliyyəti ilə yanaşı, sosial layihələrin həyata keçirilməsində fəal iştirak edir. Belə ki, şirkət Novruz bayramı münasibətilə işçilər üçün ərzaq məhsullarının yarmarkasını təşkil edib. İşçilərin aldığı ümumi məhsulun topdan satış dəyərinin 50 faizi şirkət tərəfindən qarşılanıb. Yarmarkada ərzaq məhsulları ilə yanaşı, kənd təsərrüfatı malları da təqdim olunub. “BOS Şelf” şirkətinin bu təşəbbüsü işçilərin sosial rifahının daha da yüksəldilməsi istiqamətində atılan addımların bariz nümunəsi, ən parlaq təzahürüdür.

Yarmarkada iştirak edən insanlar “BOS Şelf” şirkətinin bu təşəbbüsünü yüksək qiymətləndiriblər. Bildirilib ki, şirkət bundan sonra da sosial proqramların həyata keçirilməsini davam etdirəcək.

Qeyd edək ki, “BOS Şelf” şirkəti bayram günlərində işçilərin övladları üçün Novruz bayramı münasibətilə şənlik keçirəcək. Şənlikdə şou-proqram nümayiş olunacaq və hədiyyələr paylanacaq.

# Daşkəsəndə Novruz şənlikləri



**Martın 19-da Daşkəsən şəhərinin Heydər Əliyev meydanında Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə qeyd edilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Bahar qızı və Dədə Qorqudun müşayiəti ilə əvvəlcə bayram tonqalını yandırıb. Daha sonra Əhəd Abıyev iştirakçıları el bayramı münasibətilə təbrik edib.**

Sonra Ə.Abıyev nümayiş etdirilən el sənəti və milli mətbəximizin nümunələrinə baxış keçirib. Ümumrayon şənliyi el aşıqlarının, musiqiçilərin ifaları, idmançıların müxtəlif idman nömrələri və rəngarəng əyləncəli proqramlar ilə yadda qalıb.

Daha sonra bayram şənliyi rayon ərazisində yerləşən “N” saylı hərbi hissədə əsgər və zabitlərlə birgə davam etdirilib. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı çıxış edərək hərbi hissənin zabit, gizir və əsgərlərinə Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Tədbir bayram konserti ilə davam edib. Daşkəsənin bədii özfəaliyyət kollektivləri rəngarəng bayram proqramları nümayiş etdiriblər. Görüşə gələnlər rəqs edib, əsgərlərin bayram sevincinə qoşulublar.

*Cavid Əkbərov, “İki sahil”*

# Akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodli Kitabxanasının yaradıcısının şərəfinə təşkil edilən təntənəli qəbulda iştirak edib

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, akademik Nərgiz Paşayeva martın 15-də Oksford Universitetinin Bodli kitabxanasının rəhbəri Riçard Ovendenin dəvəti ilə Bodli kitabxanasının yaradıcısı Ser Tomas Bodlinin şərəfinə universitetin ali akademik heyəti və fəxri qonaqları üçün təşkil edilmiş 31-ci təntənəli tədbirdə iştirak edib. https://www.bodleian.ox.ac.uk/).**

Oksford Universiteti nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, Ser Tomas Bodlinin xatirəsinə və onun filantropik fəaliyyətinə həsr edilmiş bu mühüm ənənəvi tədbirdə hər il məşhur alimlər, ictimai xadimlər, Böyük Britaniya Parlamentinin üzvləri, Oksford Universitetinin əsas akademik tərəfdaşları, universitetin ali rəhbərliyi və administrasiyası iştirak edir.

Xatırladaq ki, 2018-ci il oktyabrın 11-də MDU-nun Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayeva təntənəli surətdə Oksford Universitetinin kansleri lord Patten Barnesin başçılıq etdiyi Xeyriyyəçilər Komitəsinə üzv qəbul edilib. Professor Nərgiz Paşayeva məşhur alimlər, ictimai xadimlər və Oksford Universitetinin qarşısında xüsusi xidmətləri olan nüfuzlu təşkilatlardan ibarət Xeyriyyəçilər Komitəsinə qəbul edilmiş Azərbaycanın ilk akademik nümayəndəsi olub. Lord Patten Barnes vurğulayıb ki, Nərgiz Paşayeva “Oksford Universitetinin böyük dostu və akademik tərəfdaşıdır”.

Builki təntənəli qəbulun 80 nəfərə yaxın nüfuzlu qonaqlarını Oksfordun əsas tədqiqat kitabxanası olan Ueston Kitabxanasının (Weston Library, https://www.bodleian.ox.ac.uk/weston) Bləkvell Hollda (Blackwell Hall) Bodli kitabxanasının rəhbəri Riçard Ovenden (Richard Ovenden, https://www.bodleian.ox.ac.uk/weston/about/librarian) salamlayıb.

Sonra kiçik konfrans zalında “Tanınmamış qanunvericilər: ədəbiyyat və cəmiyyət” (Unacknowledged legislators: literature and society”) mövzusunda ekspert diskussiyası keçirilib. Diskussiya britaniyalı yazıçı, jurnalist və tənqidçi (1992-2002-ci illərdə “The Times” nəşrinin redaktoru, 2002-2016-cı illərdə “The Times” nəşrinə ədəbi əlavənin redaktoru) ser Piter Stothardın (Sir Peter Stothard, https://www.revolvy.com/page/Peter-Stothard) sədrliyi ilə keçirilib. Diskussiyanın digər aparıcıları nigeriyalı şair və çoxsaylı romanların müəllifi, Buker mükafatı laureatı, cəngavər ordenli, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü Ben Okri (Ben Okri, https://www.britannica.com/biography/Ben-Okri) və britaniyalı yazıçı və tarixçi, professor, Britaniya Akademiyasının fəxri üzvü, cəngavər ordenli, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü və onun ilk (2017-ci ildə) qadın prezidenti Deym Marina Uorner olmuşdur. (Dame Marina Sarah Warner, https://www.thebritishacademy.ac.uk/fellows/marina-warner-FBA).

Tədbir çərçivəsində Bodli Kitabxanasının ilk tərkib hissəsindən biri olan, XV əsrdə yaradılmış İlahiyyat Məktəbində (Divinity School, https://www.bodleian.ox.ac.uk/whatson/venue-hire/rooms-available#div_school) təntənəli ziyafət verilib. Qeyd edək ki, İlahiyyat Məktəbində tədris məşğələləri və imtahanlarla bərabər çox sayda mühüm görüşlər, hətta Kral səfərləri də olub. Bu binanın tavanı Avropa Qotik memarlığının ən böyük nailiyyətlərindən biri hesab edilir.

Rəsmi hissədə Riçard Ovenden, həmçinin Oksford Universitetinin kansleri lord Patten Barnes qonaqların qarşısında çıxış ediblər (https://www.ox.ac.uk/about/organisation/university-officers/chancellor?wssl=1).

Bodli Kitabxanasının rəhbəri R.Ovenden rəsmi qəbul zamanı çıxışında Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini xüsusi qeyd edib. Özlüyündə çox şeyə dəlalət edən bu fakt Mərkəzin elmi-akademik, təhsil-maarifçilik və tarix-arxeologiya sahələrində gərgin işinin nəticəsini təsdiq edir.

Xatırladaq ki, professor Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetinin nəzdində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildən Azərbaycanın, Qafqazın və Orta Asiyanın zəngin tarixi-mədəni irsinin öyrənilməsinə və onu Qərbin elmi-akademik dairələrində populyarlaşdırmaq məqsədinə xidmət edir (https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus). 2018-ci il mayın 23-də Klarendon Kollecində Oksford Universitetinin vitse-kansleri, professor Luiz Riçardson və professor Nərgiz Paşayeva tərəfindən imzalanmış sazişə əsasən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində daimi əsasda onun ayrılmaz tərkib hissəsi kimi fəaliyyətə başlayıb. Bu fakt, heç şübhəsiz, mədəni, elmi və humanitar miqyaslı tarixi əhəmiyyətli hadisədir. Təsadüfi deyil ki, bu hadisəni Azərbaycanda elm, mədəniyyət və təhsil sahəsində “Əsrin kontraktı” adlandırdılar. Elmi Mərkəz yaradıldığı gündən bir sıra mühüm elmi-akademik layihə həyata keçirib. Onların arasında elmi-praktiki konfransları, şərqşünas alim Yevgeni Bertelsin (1890-1957) “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” (The Great Azerbaijani Poet Nizami) kitabının ingilis dilinə ilk akademik tərcüməsini, Mərkəzin dəstəyi ilə altı tələbənin Oksford Universitetində təhsil almasını, Oksford Universitetinin arxeoloqları tərəfindən Bərdə şəhərində qazıntılar aparılmasını və başqalarını qeyd etmək olar.




2018-ci ilin aprel ayında akademik Nərgiz Paşayevanın Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden ilə kitabxananın əsas binasında keçirilmiş işgüzar görüşündə tərəflər Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini müzakirə ediblər. Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi barədə Nərgiz Paşayevanın irəli sürdüyü təklif Britaniya tərəfindən müsbət qəbul edilib və bu, dahi Azərbaycan şair-mütəfəkkirinin dərin fəlsəfəsində və yaradıcılığında təcəssüm olunan humanist, ümumbəşəri ideyalara verilən daha bir layiqli qiymət olub.

Bodli Kitabxanasının rəhbəri və Oksford Universitetinin kansleri 2018-ci ildə kitabxana üçün xüsusi əhəmiyyət kəsb edən hadisələr arasında dövrünün çox məşhur ingilis şair və dramaturqu, 1913-cü ildə şair-laureat olmuş Robert Seymur Bricesin (1844-1930) https://www.poetryfoundation.org/poets/robert-bridges) arxivinin əldə edilməsini də qeyd edib. Brices ingilis metrikası sahəsində dərin tədqiqatlarla məşğul olub və ingilis şeirinin tonik mənşəyi barədə öz nəzəriyyəsini yaradıb. 2018-ci ilin noyabr ayında Bricesin arxivi, o cümlədən onun yaxın dostu, ingilis şair və katolik keşiş Cerard Menli Hopkinskin (1844-1889, https://www.poetryfoundation.org/poets/gerard-manley-hopkins) məktubları və əlyazmaları, habelə yazıçı və şair Tomas Hardinin (1840-1928), yazıçı və şair Redyard Kiplinqin (1865-1936) və o dövrün bir sıra başqa yazıçı və şairlərinin məktubları Robert Bricesin vərəsələri tərəfindən Bodli Kitabxanasına verilib. Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden deyib: “Bricesin arxivinin əhəmiyyəti bundadır ki, o, XIX-XX əsrlərin böyük yazıçılarının şəxsiyyətini anlamaqda və daha yüksək qiymətləndirməkdə bizə kömək edir”.

Təntənəli tədbirin sonunda dünya şöhrətli hindistanlı iqtisadçı və filosof, Şərəf Kavalerləri ordenli, Britaniya Akademiyasının üzvü, 1998-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı, professor Amartiya Sen (https://www.nobelprize.org/prizes/economic-sciences/1998/sen/biographical/) Bodli medalı ilə təltif edilib (https://oxfordliteraryfestival.org/literature-events/2019/april-3/bodley-lecture-and-award-of-bodley-medal). Qeyd edək ki, Bodli medalı ədəbiyyat, mədəniyyət və informasiya mübadiləsi kimi sahələrə verdiyi sanballı fərdi töhfəyə görə, habelə Bodli Kitabxanasını təkcə Oksfordun deyil, bütün dünyanın kitab xəzinəsi hesab edən Ser Tomas Bodlinin ideallarına çatmağa kömək etdiyinə görə Bodli Kitabxanası tərəfindən verilir. Məlumat üçün bildirək ki, Amartiya Sen bəşəriyyətin və insanın inkişafı indeksi haqqında BMT-nin illik hesabatlarının konseptual strukturunun ifadə edilməsinə sanballı töhfəsi ilə məşhurdur. Alim “rifahın iqtisadi nəzəriyyəsinə töhfəyə görə” Nobel mükafatına layiq görülüb.

Bodli Kitabxanası (https://www.bodleian.ox.ac.uk/) Oksfordun əsas kitabxanasıdır. Bu kitabxana Avropada ən qədim kitabxana hesab edilmək hüququ uğrunda Vatikan Kitabxanası ilə, ölkəsinin ən iri kitab toplusu titulu uğrunda Britaniya Kitabxanası ilə bəhsə girir. Bodli qrupuna daxil olan bütün kitabxanalarda 13 milyondan çox mətbu nüsxə və digər artefaktlar var.

Kitabxananın kitab fondu XIV əsrdə Vuster Yepiskopu Uilyam Kobenin (1327-ci ildə vəfat edib) vəsiyyətinə əsasən yaradılmış ilk məlum Oksford Kitabxanasından başlanır. Kitabxana Kraliça I Yelizavetanın sarayında çalışmış alim və diplomat Ser Tomas Bodlinin (1545-1613) sayəsində faktiki olaraq xilas edilib və ikinci həyatını qazanıb. 1598-ci ildə Ser Bodlinin səyləri ilə köhnə kitabxana yenidən qurularaq təqribən 2500 kitabdan ibarət kolleksiyanın saxlanması üçün uyğunlaşdırılıb, kitabxanaçı təyin edilib və 1602-ci il noyabrın 8-də kitabxananın açılışı olub. Bodlinin gördüyü işlər bununla bitmir. 1610-cu ildə o, ölkədə buraxılan bütün nəşrlərin zəruri nüsxəsini almaq hüququna nail olub. Ser Bodlinin ölümündən sonra da kitabxana fəaliyyətini davam etdirərək, bütün Avropadan alimləri cəlb edən nəşrlər kolleksiyasına çevrilib.

Oksford Universitetinin ayrılmaz tərkib hissəsi olan Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyəti dünyanın aparıcı akademik və ictimai xadimlərinin - alimlərin, məşhur yazıçıların, siyasətçilərin, jurnalistlərin daimi diqqət mərkəzindədir. Həqiqətən çox önəmlidir ki, Mərkəzin yorulmaq bilməyən elmi və funksional fəaliyyəti sayəsində Azərbaycanın mədəni, tarixi və ədəbi irsi qarşısında yeni imkanlar və üfüqlər açılır.

# Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam müstəqil siyasət həyata keçirir

**YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının www.yap.org.az saytına müsahibəsi**

***- Mübariz müəllim, beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilən, dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycan bu günlərdə VII Qlobal Bakı Forumuna uğurla ev sahibliyi etdi. Forumun regional və qlobal məsələlərin müzakirəsi baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Bu gün Avropa məkanında dinlər və mədəniyyətlərarası dialoqa nail olmaq, dünyada sülh və əmin-amanlığı bərqərar etmək üçün bütün beynəlxalq təşkilatların və ölkələrin səylərinin birləşdirilməsi vacibdir. Tolerantlıq nümunəsi olan Azərbaycan bu prosesdə çox fəal və aparıcı rola malikdir, dinlər və sivilizasiyalararası dialoqa xidmət edən çox mühüm təşəbbüslər irəli sürür. Əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi, demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilmişdir. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Sammitinə və digər nüfuzlu beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir, sivilizasiyalararası dialoqun intensiv və faydalı xarakter daşımasına fundamental töhfələr verir. Martın 14-16-da Azərbaycanın paytaxtında keçirilən VII Qlobal Bakı Forumu da bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

***Multikulturalizmin Azərbaycan təcrübəsi dünyada mütərəqqi nümunə kimi qəbul edilir***

Multikulturalizmin Azərbaycan təcrübəsi dünyada mütərəqqi nümunə kimi qəbul edilir. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz bu gün də bu reallığın şahidi oluruq. Bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş dairələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu inkar edə bilmirlər, ölkəmizin tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırırlar. Ölkədə multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə Prezident İlham Əliyevin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi reallıqdır. Bir sözlə, multikulturalizm mərkəzlərindən birinə çevrilən Azərbaycan dünyaya mütərəqqi dəyərlər təqdim edir, qlobal əhəmiyyətli təşəbbüsləri ilə sivilizasiyalararası dialoqa mühüm töhfələr verir.

***- Azərbaycanın inkişafından və beynəlxalq mövqeyinin möhkəmlənməsindən ciddi narahatlıq keçirən anti-Azərbaycan dairələr və "beşinci kolon" nümayəndələri ölkəmizin əldə etdiyi uğurların və müsbət imicinin üzərinə kölgə salmağa, ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışırlar. Bunun arxasında duran səbəblər nədir?***

- Əvvəla qeyd edim ki, "beşinci kolon" anlayışı İspaniyada Franko rejimi ilə respublikaçılar arasında baş verən müharibə zamanı meydana gəlib. Bu anlayış xarici qüvvələrlə əlbir olaraq öz millətinə, dövlətinə xəyanət edən qrupları təsvir etmək üçün istifadə olunur. Yəni bu qüvvələr düşmənlə sinxron hərəkət edərək antimilli mövqedən çıxış edirlər. Tarixdə bu barədə çoxsaylı nümunələr mövcuddur. Çox təəssüf ki, Azərbaycanda da milli maraqlara zidd mövqe nümayiş etdirən belə marginal qruplar olub və bu gün də var. Eyni zamanda, Azərbaycanda ictimai, siyasi, elmi, mədəni və digər sahələrdə heç bir uğur əldə edə bilməyən, xaricə gedərək antiazərbaycan dairələrlə birlikdə ölkəmizə qarşı ideoloji təxribatlarda iştirak edən adamlar məhz "beşinci kolon" nümayəndələridir. Elə ölkə daxilindəki xəyanətkar ünsürlərin də antimilli əməlləri göz önündədir. Üstəlik, onların erməni lobbisi, xaricdəki erməni təşkilatları ilə əlaqələrinin olmasına dair məlumatlar da var.

***Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanların, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır***

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Son zamanlar Prezident İlham Əliyevin imzaladığı Fərman və Sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Yəni bütün bu tədbirlər uzunmüddətli islahatlar paketinin tərkib hissəsidir. Təbii ki, bu reallıqlar antiazərbaycan dairələri narahat edir və həmin qüvvələr ölkəmizə qarşı "beşinci kolon"dan istifadə edirlər. Erməniparəst qüvvələrin maraqlarını müdafiə edən antimilli ünsürlər sosial şəbəkələr və müxtəlif internet resursları vasitəsilə həqiqətə uyğun olmayan məlumatlar yayaraq iddia edirlər ki, guya bu islahatlar onların "fəaliyyət"i nəticəsində baş tutub. Bu, gülünc və heç bir əsası olmayan iddiadır. Onların məqsədi Azərbaycanın inkişafına, vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına xidmət edən, qarşıya qoyulan hədəflərə çatmağa imkan verən tədbirlərin, islahatların və müsbət reallıqların üzərinə kölgə salmaqdır. Onlar, həmçinin müxtəlif ideoloji təxribatlar vasitəsilə ölkədə ictimai-siyasi sabitliyin pozulmasına çalışırlar. Amma bütün bu cəhdlər faydasız və nəticəsizdir. Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur, ölkədə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib. Bütün bu reallıqları görən ölkə vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti yüksək qiymətləndirir, bu siyasətin Azərbaycanın gələcək inkişafının əsası olduğunu anlayır və dövlət başçısına, Onun siyasətinə böyük inamını ifadə edirlər. Ona görə də Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanların, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır.

***- Erməniparəst dairələrin sifarişlərini yerinə yetirən xaricdəki antimilli ünsürlər isə Azərbaycan xalqına və dövlətinə qarşı təhqir kampaniyası aparır, xalqımızın milli mənəvi dəyərlərini hədəfə alırlar. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

- Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi ümumbəşəri və mütərəqqi ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə fərqlənir. Digər tərəfdən, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlının qarşısında duran mühüm vəzifələrdəndir. Tarixi şəxsiyyətlər də bizim milli-mənəvi dəyərlərimizdir. Onların irsinin qorunması və nəsillərə ötürülməsi də bu baxımdan müstəsna əhəmiyyətə malikdir. Azərbaycan dövləti bu istiqamətdə ardıcıl və məqsədyönlü iş aparır. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən həyata keçirilən işlər də bu baxımdan xüsusi qeyd edilməlidir.

Təəssüf ki, milli maraqlara zidd mövqe tutan, ermənilərin maraqlarının müdafiəçisinə çevrilmiş anti-milli ünsürlər, "beşinci kolon" nümayəndələri Azərbaycan xalqını, onun milli mənəvi dəyərlərini hədəfə alırlar, təhqir kampaniyası aparırlar. Onlar Azərbaycan xalqının milli xüsusiyyətlərinə, tarixi şəxsiyyətlərimizə qarşı təhqiramiz fikirlər səsləndirməklə əsl simalarını ortaya qoymuş olurlar. Şübhəsiz ki, antiazərbaycan dairələrin alətinə çevrilmiş bu ünsürlərin təhqir kampaniyası cəmiyyətdə böyük hiddət və narazılıqla qarşılanır. Cəmiyyət nümayəndələri bu cür kampaniyaların məhz erməniparəst dairələrin sifarişi əsasında həyata keçirildiyini bilir, "sapı özümüzdən olan baltalar"ın çirkin əməllərinin yolverilməz olduğunu qətiyyətlə ifadə edir.



***- Mübariz müəllim, martın 16-da Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı imzalaması Azərbaycan cəmiyyəti və beynəlxalq təşkilatlar tərəfindən olduqca yüksək qiymətləndirilir. Lakin bəziləri bu böyük humanizm aktının üzərinə kölgə salmaq üçün absurd iddialar səsləndirir, həqiqətə uyğun olmayan fikirlər ifadə edirlər...***

- Əvvəlcə qeyd edim ki, Azərbaycanda məhkumların əfv olunması, vətəndaşlara humanist münasibətin göstərilməsi davamlı xarakter daşıyır. Bu günə qədər ölkəmizdə 70-ə yaxın əfv Sərəncamı imzalanıb. Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam da bu baxımdan xüsusi qeyd edilməlidir. Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunan və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər cəzadan azad olunub. Eləcə də azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər islah işləri cəzasından, bir nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib. Göründüyü kimi, Prezident İlham Əliyev imzalanan əfv Sərəncamı böyük humanizm nümunəsi olmaqla yanaşı, dövlətin öz vətəndaşlarına yüksək diqqət və qayğısını əks etdirir.

***Bəzi adamların iddiaları ilə müddəaları üst-üstə düşmür, tərs mütənasiblik təşkil edir***

Təəssüf ki, bu humanizm aktının üzərinə kölgə salmaq istəyənlər də var. Vaxtilə müxtəlif xarakterli cinayət əməlləri törətmiş, korrupsiya faktlarına görə hüquqi məsuliyyətə cəlb olunaraq həbs edilənlər azadlığa çıxdıqdan sonra öz səhvlərini dərk edib cəmiyyətə yararlı olmaq yolunu seçmək əvəzinə, yenidən hakimiyyətə və dövlətə qarşı ittihamlarla çıxış edirlər. Onların əfv Sərəncamının üzərinə kölgə salmağa, ictimai rəyi çaşdırmağa çalışırlar. Korrupsiya əməlləri cəmiyyətə yaxşı məlum olan keçmiş səhiyyə naziri onun azad edilməsinin guya xarici təsirlər nəticəsində olduğuna dair absurd iddialar səsləndirir. Hər kəsə, eləcə də həmin adamın özünə də yaxşı məlumdur ki, Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam mustəqil siyasət həyata keçirir, hər hansı bir təsir və təzyiqə qətiyyən imkan vermir. Respublikamız öz msstəqil inkişaf yolunda irəliləyir, ölkəmizin daxili, xarici siyasəti suverenlik prinsipinə əsaslanır və milli maraqlara xidmət edir. Ona görə də hər hansı bir təzyiqdən söhbət gedə bilməz. Həmin adama sual vermək lazımdır ki, əgər həmin qərar xarici qüvvələrin təsiri ilə qəbul olunubsa, bu, sözügedən şəxsin cəzaçəkmə müddətində nə üçün olmayıb? Bu, birmənalı şəkildə Prezident İlham Əliyevin humanist təşəbbüsüdür və onun üzərinə kölgə salmaq mümkün deyil. Ümumiyyətlə, bəzi adamların iddiaları ilə müddəaları üst-üstə düşmür, tərs mütənasiblik təşkil edir. Onlar öz şəxsi maraqlarını və antiazərbaycan dairələrin mənafelərini Azərbaycanın milli maraqlarından üstün tuturlar. Bu, bütün hallarda yolverilməzdir. Sağlam siyasi qüvvələr, eləcə də cəmiyyətin avanqard siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası daim milli maraqları üstün tutur, Azərbaycanın inkişafına və qüdrətinin daha da artmasına xidmət edən addımların təqdirəlayiq olduğunu birmənalı şəkildə və qətiyyətlə ifadə edir.

# TÜRKPA Katibliyində Novruz bayramı

Martın 16-da Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Katibliyində Novruz bayramı münasibətilə tədbir keçirilib.

TÜRKPA Katibliyindən verilən məlumata görə, tədbirdə Milli Məclisin qurumda təmsil olunan deputatları Əhliman Əmiraslanov, Hikmət Babaoğlu, Nizami Cəfərov, Cavanşir Feyziyev, Şəmsəddin Hacıyev, İlham Əliyev və digər qonaqlar iştirak ediblər.

TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov çıxış edərək çoxəsrlik tarixi olan Novruz bayramının türkdilli ölkələrdə yüksək səviyyədə qeyd olunmasının əhəmiyyətini vurğulayıb və Novruzun sülh və əmin-amanlıq, sabitlik rəmzi olduğunu bildirib. Baş katib görüşdə iştirak edən hər kəsə təşəkkür edib, Novruz bayramı münasibətilə təbrik edib və TÜRKPA Katibliyinin bu kimi tədbirlərə ev sahibliyi etməyə daim hazır olduğunu söyləyib.

Tədbirdə çıxış edən TÜRKPA-da Milli Məclisin nümayəndə heyətinin üzvlərindən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Novruzun türk xalqlarının ortaq bayramı olduğunu vurğulayıb. Qeyd edib ki, baharın gəlişi və təbiətin oyanışı ilə əlaqədar qeyd olunan bu bayram türkdilli ölkələr arasında dərin tarixi və mədəni bağlardan xəbər verir. Onun sözlərinə görə, Novruz qardaşlıq, birlik və mənəvi saflıq rəmzi olaraq xalqlarımızın zəngin adət-ənənəsini nümayiş etdirir.

Novruzun türk xalqlarının ümumi mədəni dəyəri olduğunu qeyd edən Milli Məclisin deputatı Nizami Cəfərov bu bayramın insanlara sevinc, xoşbəxtlik və nikbin əhval-ruhiyyə gətirdiyini bildirib. O, Novruzun qeyd edilməsinin milli dəyərlərə sadiqlik və onların gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyətini vurğulayıb. Novruz bayramını ulu əcdadların türk xalqlarına gözəl yadigarı kimi qiymətləndirən millət vəkili bayramın qəlbərdə saf duyğular oyatdığını, səmimiyyət və mehribanlıq hissləri yaratdığını qeyd edib.

Tədbirdə digər çıxış edən natiqlər də türkdilli xalqları bir-birinə bağlayan bu qədim bayramın kökləri, tarixi və əhəmiyyəti barədə fikirlərini bildiriblər.

### ƏSİR VƏ İTKİN DÜŞMÜŞ, GİROV GÖTÜRÜLMÜŞ VƏTƏNDAŞLARLA ƏLAQƏDAR DÖVLƏT KOMİSSİYASININ

**MƏLUMATI**

Hazırda Ermənistanda saxlanılan Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 29.10.1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu ilə bağlı məsələ hadisənin baş verdiyi 2019-cu il martın 16-dan etibarən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının diqqət mərkəzindədir.

AZƏRTAC Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının saytına istinadla xəbər verir ki, E.İbrahimovun azad edilməsi ilə bağlı Dövlət Komissiyası tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət ünvanlanıb, onun ruhi xəstə olduğu və əqli inkişafdan geri qaldığı diqqətə çatdırılıb.

Daxil olmuş məlumata əsasən, martın 19-da Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistan Respublikasındakı nümayəndəliyinin əməkdaşları saxlandığı xəstəxanada E.İbrahimova baş çəkiblər. E.İbrahimovun səhhətində hər hansı problemin olmadığı və qarşı tərəfə keçərkən ayağından aldığı yaranın müalicəsinin davam etdirildiyi bildirilir.

Dövlət Komissiyası hazırda tərəflərdə saxlanılan şəxslərin hamının-hamıya prinsipi ilə azad edilməsinin zəruri olduğunu bir daha vurğulayır.

*Almaniya Parlamentinin deputatı Yohan Vadeful:*

## Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir

Almaniya Parlamentində XDİ/XSİ fraksiyası sədrinin müavini Yohan Vadeful Azərbaycanın Dağlıq Qarabağ regionunu birmənalı olaraq işğal edilmiş ərazi kimi səciyyələndirərək deyib: "Bir məsələ aydındır: Azərbaycan ərazisi Ermənistan tərəfindən qeyri-qanuni işğal edilib".

Vadeful bu fikri Xocalı qırğınının 27-ci ildönümü münasibətilə Almaniya-Azərbaycan forumu, Azərbaycanın AFR-dəki səfirliyi və Almaniya Atlantik Cəmiyyəti tərəfindən Berlində təşkil edilmiş "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik: Almaniya-Azərbaycan tərəfdaşlığının perspektivləri" mövzusunda simpoziumda söyləyib.

Rəsmi Bakının iqtisadiyyatın şaxələndirilməsi təşəbbüsünü yüksək qiymətləndirən Vadeful Azərbaycanı "Cənubi Qafqazda Almaniyanın ən mühüm ticarət tərəfdaşı" adlandırıb.

Siyasətçi deyib: "Biz Azərbaycanı enerji təchizatının şaxələndirilməsi məsələlərində etibarlı tərəfdaş kimi qiymətləndiririk".

## Keyfiyyətsiz və saxta dərman gətirənlərin işi çətinləşir



Azərbaycanda keyfiyyətsiz və saxta dərman vasitələrinin istehsalı, idxalı və satışına qarşı mübarizə gücləndirilir. Trend-in məlumatına görə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilir.

Məcəllənin 38-ci maddəsinə (Müddətin keçməsi ilə bağlı inzibati məsuliyyətdən azad etmə) edilən dəyişikliyə əsasən, keyfiyyətsiz və saxta dərman vasitələrinin istehsalı, idxalı və satışı da inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək inzibati tənbeh verilən hallar sıyahısına daxil edilir.

Belə ki, hazırda dərman vasitələri ilə bağlı inzibati xəta törədildiyi gündən üç ay keçəndən sonra şəxs məsuliyyətdən azad olur.

Məcəlləyə dəyişikliyin məqsədi keyfiyyətsiz və saxta dərman vasitələrinə qarşı mübarizənin səmərəliliyini artırmaqdır. Belə ki, üç ay müddəti dərman vasitələri haqqında qanunvericiliyin pozulması ilə bağlı inzibati xətaların araşdırılması üçün yetərli olmadığından layihədə həmin inzibati xətalar üzrə müddətin bir ilədək uzadılması təklif olunur.

# Səmənili, xonçalı Novruz, qədəmlərin mübarək, uğurlu olsun!

**Prezident İlham Əliyevin son günlərdə imzaladığı sərəncamlar, fərmanlar, Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etməsi insanların bayram sevincini daha da artırır**

**Yurdumuza bahar gəlir. Elimizə bolluq, bərəkət gətirən, bütün müsəlman aləmində əziz tutulan, təbiəti qış yuxusundan oyadan Novruzun gəlişi qəlblərimizi isidir, xoş əhval-ruhiyyə bəxş edir.**



Novruz bayramı münasibətinə Azərbaycan xalqını təbrik edən Prezident İlham Əliyevin vurğuladığı kimi, qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadlarımızın indiki nəsillərə misilsiz yadigarıdır: "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir."

Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək yaşadan Novruz bayramı türkçülük, azərbaycançılıq ideyasının təbliğində də böyük rola malikdir. Odlar diyarını sivlizasiyaların qovuşuğundakı qədim mərkəz olaraq tanıdıb şöhrətləndirmiş mədəni sərvətlər xəzinəmizdə Novruz mərasimləri müstəsna mövqeyə malikdir.

Dünən paytaxt sakinləri ilə birgə baharın yurdumuza gəlişini, əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizlə iştirakı ilə qeyd edən Prezident İlham Əliyev Azərbaycan xalqına ünvanlandığı təbrik məktubunda onu da bildirir ki, qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmiş, insanlığa xas ali dəyərləri özündə birləşdirmişdir. Novruz şənliklərində iştirak edən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri sayəsində bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

Novruz bayramının beynəlxalq səviyyədə tanınması üçün göstərilən bu xidmət bütünlükdə Şərq xalqlarının, müsəlman aləminin elliklə qeyd etdiyi Novruz bayramının təbliği baxımından çox əhəmiyyətlidir.

Artıq yurdumuza qədəm qoyan bahar soraqlı Novruz gəlişi ilə ellərə, obalara xeyir- bərəkət, ruzi, xoş əhval-ruhiyyə bəxş edir. Dədə Qorqud boylarından bu günümüzə ərmağan olan, qədim, tarixlərin sınağından çıxmış el şənliyini Novruzun adət -ənənələrinə uyğun qarşılayan xalqımız ölkəmizdə qazanılan uğurların daha da artırılması diləyi ilə şənliklərdə iştirak edir . Novruz tonqallarının istisinin ürəklərdə yaratdığı hərarət, süfrələrə yaraşıq verən nemətlər, göyərdilən səmənilər ruzi, bərəkət rəmzi olmaqla birlik, həmrəylik simvoludur. Novruzun əsas personajlarından olan Keçəllə Kosanın məzəli oyunları, zarafatları, atmacaları hamının üzündə təbəssüm, sevinc yaradır.

Yeni ilin başlanğıcını bildirən Novruzun yurdumuza builki gəlişi daha möhtəşəm və təmtəraqlıdır. Son günlərdə Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsi üçün imzaladığı biri-birindən əhəmiyyətli sərəncamların, fərmanların, həyata keçirilən önəmli islahatların sevincini yaşayan Azərbaycan xalqı bu bayramı xüsusi nikbinliklə qarşılayır.

Adətən yeni il tarixə qovuşan ilin uğurları ilə qarşılanır, görülmüş işlərə nəzər salınır, iqtisadi, sosial inkişaf konsepsiyasının tətbiqi ilə qazanılan nailiyyətlər diqqətə çatdırılır.

"Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Mən giriş sözümdə qeyd etdim ki, keçən il dərin islahatlar ili olmuşdur. Bu islahatlar cəmi il ərzində özünü göstərdi, əlbəttə ki, gələcək illərdə özünü daha böyük həcmdə göstərəcək" söyləyən cənab İlham Əliyevin sözləri reallığa əsaslanır. Çünki ötən on beş ildə ölkədə formalaşan, möhkəmlənən iqtisadi, maliyyə potensialı 2019-cu ildə daha böyük uğurlar üçün təməldir.

İqtisadi artım sürətinə görə MDB məkanında birinci olan, makroiqtisadi sabitlik indeksinə görə araşdırma aparan beynəlxalq təşkilatların hesabatlarında daha yüksək pillələrdə yer alan Azərbaycanın investisiya yatırımları üçün cəlbedici ölkə kimi qiymətləndirilməsi ölkədə həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsidir.

11 aprel 2018-ci ildə keçirilən prezident seçkilərindən sonra parlaq qələbə qazanan Prezident İlham Əliyevin imzaladığı ilk Fərmana əsasən şəhidlərin vərəsələrinə 11 min manat məbləğində ödənişlərin verilməsi torpaq uğrunda canlarından keçmiş şəhid ruhlarına hörmət, onların ailələrinə diqqətin ifadəsidir. Hazırda 12 min 200-dən çox şəhid ailəsi bu ödənişlərlə təmin olunub. Növbəti Fərmanla şəhid ailələrinə verilən müavinət 242 manatdan 300 manata, Əfqanıstanda həlak olanların ailələri üçün nəzərdə tutulan müavinət 220 manatdan 300 manata qaldırıldı. Məcburi köçkünlərlə bağlı sosial islahatlar da davam etdirilir. Son illərdə məcburi köçkünlər üçün 100-dən artıq şəhərcik salınmış, köçkün ailələri mənzillərlə və fərdi evlərlə təmin edilmişdir. Bu il Bakıda, Sumqayıt şəhərlərində həyata keçirilən tikinti proqramına əsasən 7 minə yaxın köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək.

Keçən il şəhid ailələrinə 626 mənzil verilmişdir. Bu il isə daha 800 şəhid ailəsi mənzillə təmin olunacaq. Şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 6 mindən çox minik maşını verilmişdir. Bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayrılmışdır. Cəbrayıl rayonunun işğaldan azad olunan Cocuq Mərcanlı kəndi qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsində (Tərtər rayonu) 1170 ailə üçün yeni şəhərcik salınmışdır.

Bu kimi sosial islahatlar Azərbaycanın dövlət siyasətinin mərkəzində insan amilinin olduğunu, dövlət-vətəndaş münasibətlərinin daim diqqətdə saxlanıldığını təsdiqləyir. "Vətəndaş bu gün bilir ki, dövlət güclü olarsa, onun da həyatı təhlükəsiz olar, risksiz olar, rahat olar və ildən-ilə artan maddi rifah daha da çoxalar" söyləyən, Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələlərin fəsadları ilə yerindəcə tanış olan, insanların təkliflərini dinləyən və icra üçün nəzarətə alan dövlət başçımızın bildirdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından daha önəmli, genişmiqyaslı il olacaq. Bu il 600 min nəfəri əhatə edən minimum əməkhaqqı 130 manatdan 180 manata qaldırıldı. Dövlət başçımız açıqlamasında bildirdi ki, ölkədə əmək haqqının və pensiyanın artırılması siyasəti daim gündəlikdə dayanacaq və bu proses davamlı olacaq.

Minimum pensiyalarla bağlı da ciddi qərar qəbul edildi. Minimum pensiyaların məbləği 116 manatdan 160 manata qaldırıldı.

İllərdən bəri müzakirə edilsə də həlli yubanan, vətəndaşları narahat edən problemlərdən olan rəsmən qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi də həllini tapdı. Belə ki, dörd yüz çoxmənzilli binada yaşayan 60 minə yaxın ailəni sevindirmək mümkün olacaq. Növbəti diqqət və qayğı təqribən 100 min tələbəni əhatə edən təqaüdlərin artırılması oldu. Hazırda fərdi evlərin qeydiyyata alınması üçün araşdırmadar aparılır. Son günlərdə əhalini daha çox sevindirən isə problemli kreditlərlə bağlı nəzərdə tutulan məsələnin həlli istiqamətində atılan addım oldu.

Novruz bayramını belə yeniliklərlə qarşılayan hər bir vətəndaş şənliklərdə elliklə iştirak edir, Novruzun atributları olan Kosanın, Keçəlin şən zarafatlarına qoşulur, hər kəsə bolluq, bərəkət arzulayır. Qoy bu bayramda alovlanan tonqallar ürəklərə sevinc, fərəh gətirsin, ruzimiz bol, ocaqlarımızın hərarəti qəlblərimizə birlik, həmrəylik, mehribanlıq kimi səmimi duyğular bəxş etsin! Novruz ölkəmizə sülh, əmin-amanlıq gətirsin, hər birimizə yar olsun! Xalqımıza Novruz sevincini Qarabağda yaşamaq sevincini nəsib etsin! Bayramınız mübarək! Tanrı Azərbaycan xalqını qorusun!

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***




## İKİQAT BAYRAM SEVİNCİ



"Xalqımız Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətindən və həyata keçirdikləri islahatlardan çox razıdır." Bu sözləri Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov mətbuata açıqlamasında bildirib.

Deputat qeyd edib ki, martın 16-da Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı imzalamaqla yüzlərlə ailəyə növbəti dəfə sevinc yaşatdı. Əfv Sərəncamı ümumilikdə 431 nəfərə şamil olunub. Deputat bildirib ki, son aylarda 100-ə yaxın müxtəlif Sərəncam, Fərman və qərarlar verilib ki, bu sənədlərin arxasında da Azərbaycan vətəndaşının daha yaxşı yaşaması dayanır: "Möhtərəm Prezidentimizin Novruzqabağı humanist addımı da hamılıqla alqışla qarşılanır. Əfv olunanlar müəyyən cinayət törədən və cəzasının müəyyən hissəsini çəkənlərdir. Sərəncamın digər xüsusiyyəti və tərbiyəvi əhəmiyyəti ondan ibarətdir ki, törətdikləri cinayət əməlinin məsuliyyətini dərk edərək peşmançılıq hissi keçirənlər bağışlanırlar. Onların cəzasının bağışlanması həm həmin şəxslər üçün, həm də onların ailə üzvləri üçün bayram sevincidir".

## Bahar nə xoş gəlir...

Dağlar diyarı Lerikdə də şair demişkən, xəyala, duyğuya qol-qanad verən baharın pişvazına sevgi dolu qəlblə çıxıblar. Artıq sevinc, fərəh içində olan bu yurdun əkin-biçin adamı havanın barlı-bəhrəli nəfəsini duyan gündən halal torpağının önündə öz qolunu çırmalayıb yaz işlərinə başlayıb. Beləcə də təbiət tumurcuq- tumurcuq oyandıqca uşaqlı-böyüklü bütün leriklilərin könülləri də bir heyrət dünyasına şadlanır. Belə də olmalıdır. Firavan, azad, qüdrətli ölkənin vətəndaşı olmaq xoşbəxtliyi taleyimizə yazılmaqla, elə Novruz da ulu Tanrının bizlərə sevgi payıdır. Odur ki, onun yaratdığı ilahi gözəlliyə, müqəddəsliyinə Azərbaycan xalqı daha ürəkdən tapınır.

Bəli, baharın gəlişi leriklilərin hər gününə yeni təravət qatır. Buranın ab-havası xoş ovqatlıdır. Mərkəzi Heydər Əliyev meydanında keçirilən tədbir isə insanlara əsl bayram əhvali- ruhiyyəsi yaşatdı. Meydanın əsrarəngizliyi elə baharın özü kimi bəzəmişdi. Tədbir iştirakçıları öncə burada bayram münasibətilə təşkil edilmiş əl işləri və xalq sənətkarlığı nümunələrindən ibarət sərgiyə baxdılar. Gözə dəyən hər şeydə də bahara tanrı eşqi göründü.

Meydanda qurulan bahar müjdəli Novruz tonqalı Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov və ağsaqqal Hidayət Beşirov tərəfindən alovlandı. Sonra R. Bağırov min illər boyu xalqımız tərəfindən məhəbbətlə yaşadılan, milli birlik və həmrəylik rəmzi olan Novruz bayramı ilə əlaqədar rayon sakinlərini təbrik edərək hər ailəyə bol ruzi , xoşbəxtlik, səadət arzuladı. Natiq ötən Novruzdan bəri rayonda görülən işlərdən, qazanılan nailiyyətlərdən söz saldı. Ötən il Prezident İlham Əliyevin rayona səfərindən xoş xatirələr söylədi və gələn ili Novruz tonqallarının Qarabağda qurulmasını arzuladı.

Bayram tonqalı ətrafında şən, oynaq musiqi sədaları altında milli geyimli uşaqların ifa etdikləri xalq rəqsləri tədbirə xüsusi ovqat qatdı. İncəsənət ustalarının baharı, doğma Azərbaycanı vəsf edən şirin mahnıları ətrafa yayıldıqca sevinc sevincə qarışdı. Novruzun rəmzi olan Kosa və Keçəlin göstərdikləri səhnələr də olduqca maraqlı alındı.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# BSU-da "XONÇA MÜSABİQƏSİ"







Martın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Nəsimi rayon Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş fakültələrarası "Xonça müsabiqəsi" keçirilib.

BSU-nun mətbuat xidmətindən "İki sahil"ə verilən məlumata görə, tədbirin əvvəlində çıxış edən BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov dünyada sülh və birgə yaşayışın təmin edilməsi məqsədilə hər kəsi Novruzun aşıladığı milli dəyərləri qorumağa və onları gələcək nəsillərə ötürməyə çağırıb, bayram münasibətilə hər kəsi təbrik edib, sağlam can, bol ruzi, firavanlıq arzulayıb.

Bayram tədbirində "Xonça müsabiqəsi"nin qalibləri mükafatlandırılıb. "Çeşidli xonça" nominasiyası üzrə filologiya və xarici dil müəllimliyi fakültəsi, "Möhtəşəm xonça" nominasiyası üzrə Azərbaycan filologiyası və jurnalistika fakültəsi, "Qədim üslublu xonça" nominasiyası üzrə beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi, "Kreativ xonça" nominasiyası üzrə pedaqoji fakültə, "Bəzəkli xonça" nominasiyası üzrə tərcümə fakültəsi, "Gözəl və bərəkətli xonça" nominasiyası üzrə Əlavə təhsil və qiyabi şöbə, "Zövqlü xonça" nominasiyası üzrə magistratura şöbəsi qalib gəlib və diploma mükafatlandırılıblar.

Tədbirin davamında tələbələrin ifasında mahnılar, milli rəqslər, birlik rəmzi olan "Yallı" nümayiş etdirilib.

Qeyd edək ki, müsabiqədə sərgilənən xonçalar və bayram süfrəsinə lazım olan ərzaqlar YAP Gənclər Birliyinin xeyriyyə qrupu üzrə məsul nümayəndəsi Günay Əhmədovanın təşkilatçılığı ilə toplanılıb. Xonça və ərzaqlar Bakı "SOS" Uşaq Kəndinə və aztəminatlı ailələrə paylanılacaq.

## “Paşinyan demokratiyasının” astar üzü



**Sevinc Azadi**

Bu gün bəziləri Ermənistanı demokratik bir dövlət kimi qələmə verməyə çalışsalar da, ölkənin hazırkı reallıqları başqa nüanslardan xəbər verir. Belə ki, ölkənin hazırkı həyat əlamətləri, əvvəlki Serj Sarkisyanın dövründəki həyat əlamətlərindən heç nə ilə fərqlənmir. Sabiq erməni deputat, iş adamı Aşot Aqababyan “1in.am” saytına verdiyi açıqlamada “Bu gün biz Ermənistanda korrupsiyanın yox olduğunu desək də, əslində bu, belə deyil”-deyə bildirib. Onun sözlərinə görə, nə qədər ki, bu ölkədə korrupsiya mövcuddur, bu halda, nə iqtisadi inqilab, nə də iqtisadi artımdan söz belə gedə bilməz. Maraqlıdır ki, erməni iş adamı Ermənistanda iqtisadi inqilabın həyata keçirilməsi üçün ölkənin bütün kommunikasiyalarının dövlətə qaytarılmasını təklif edir: “Bundan əlavə, iqtisadiyyata aid qanunvericilik çərçivəsində dövlət öz kommunikasiyasına sahib olmalıdır. Bu, dövlətin iqtisadi inqilabı üçün əla dəstək ola bilər”.

Ermənistanın korrupsiyadan qurtula biləcəyinin yaxın illərin işi olmadığını gizlətməyən Aqababyan bunun üçün uzun dövr lazım olduğunu bildirir. Onun fikrincə, uzun illər ərzində insanların düşüncə tərzinə köklənmiş korrupsiya bir-iki ildə məhv edilə bilməz: “... Bunun üçün biz ona qarşı konkret addımlar atmalıyıq. Bu gün Ermənistanda qəribə bir tendensiya yaranıb. Belə ki, bəzi tanınan korrupsionerləri tutub, pulunu alandan sonra azadlığa buraxırlar. Doğrudur, onlar bu sərvəti dövlətdən oğurlayıblar, dövlətə qaytarsalar da, kim onların yenidən korrupsioner fəaliyyətlərini davam etdirməyəcəklərinə zəmanət verir? Bu yaxınlarda, Serj Sarkisyanın qardaşı dövlətə qaytardığı 30 milyon qarşılığında ölkədən çıxışına icazə verildi. Amma bütün Ermənistan bilir ki, bu onun dövlətdən oğurladıqlarının sadəcə, bir damlasıdır.”

Artıq hər tərəfdən tənqid olunmağa başlayan Paşinyan hökuməti nəinki tənqidlərlə barışmır, hətta onlarla qarşıdurmaya belə gedir. Halbuki cəmi altı ay bundan əvvəl Paşinyanı müdafiə edənlər bunları heç ağıllarına belə gətirmirdilər. Belə ki, ötən gün İrəvanın mərkəzində kafe sökülməsi prosesinin səbəb olduğu mitinqin iştirakçıları ilə polislər arasındakı qarşıdurma cəmiyyət ilə Paşinyan hökuməti arasında ilk ciddi qarşıdurma idi.

Paşinyan səlahiyyətlisi olan şəhər bələdiyyəsinin xeyli ailənin gəlir yeri olan kafelərin sökülməsi barədə verdiyi göstəriş ağılsız bir səhvdən başqa bir şey deyil. Belə ki, bələdiyyə və hökumət bu obyektlərə kafe sahiblərinin pul yatırdıqlarını, bu obyektlərin onların şəxsi əmlakı olduğunu nəzərə almadı. Bununla yeni hakimiyyət nəyə qadir olduğunu ortaya qoymuş oldu. Bu, bir növ “biz nə istəyirik, o da olacaq, xalqın düşüncə və ehtiyacları bizlik deyil” anlamını meydana gətirmiş oldu.

Öz hüququnu müdafiə edən hər hansı bir şəxs erməni polisinin dəyənəyi ilə üzləşir, asfaltda sürüklənir. Məgər Paşinyan xalqa belə bir demokratik cəmiyyət barədə vədlər vermişdi? Artıq xalq, dəyəsən, baş verən hadisələrdən sonra bunları dərk etməyə başlayır. Görünür, Paşinyan və onun hökuməti bir müddətdən sonra təkcə Respublikaçılar və onun hakimiyyətdə olan azsaylı nümayəndələrindən deyil, həm də onu hakimiyyətə gətirən cəmiyyətdən də ehtiyatlanmağa başlayacaq. Əslində, Paşinyanın buna əsası da var. Çünki artıq erməni cəmiyyətində “canlanma”ya start verilib. Təsadüfi deyil ki, İrəvanın digər hissəsində, lombard və valyuta mübadiləsi işçiləri də etiraz aksiyasına qalxmışdılar. Onlar da hökumətdən öz hüquqlarının qorunmasını tələb edirdilər.

Belə görünür ki, artıq Paşinyan və onun hökuməti çətin bir vəziyyətlə üz-üzə qalmaqdadır. İndi cəmiyyət yeni hakimiyyəti təkcə tənqid etmir, həm də onun hakimiyyəti ilə qarşıdurmaya belə, getməkdən çəkinmir. Maraqlıdır ki, Paşinyan hələ də özünü görməzliyə, eşitməzliyə vurmaqdadır. Amma bütün bunlar onun gələcək karyerası üçün heç də yaxşı vədlər vermir. İnsanlar Paşinyana, onun vədlərinə böyük etimad göstərirdilər. Ancaq hökumətin bir çox addımları cəmiyyətdə acı reaksiya doğurmaqla bərabər, Paşinyana olan etimadın günü-gündən daha da zəifləməsinə səbəb olub.

# Elm cəmiyyətin nicatı, tərəqqisi və rifahının rəhnidir

**Elm bütün dövrlərdə cəmiyyətin inkişafında, rifah halının yaxşılaşmasında vacib rol oynayıb. Tarix boyu dünyanın qlobal bəlalardan, böhranlardan xilasının, bəşər övladının sağlam, işıqlı gələcəyinin keşiyində elm durub. Çağdaş dövrdə elm çox sürətlə irəliləyir. Elə “dəyişən dünya” ifadəsi də məhz elmi-texniki tərəqqi sayəsində meydana gəlib. XXI əsr bəşər sivilizasiyasının yeni inkişaf trendinə çevrilən, fantastik gələcəyi belə reallığa çevirən inqilabi elmi kəşflər, qabaqcıl texnologiya və innovasiyaların tətbiqi bizi hədəfə doğru aparır, gələcəyimizi müəyyənləşdirir.**



**Ülviyyə Rzayeva,**
*AMEA Rəyasət Heyəti aparatı Mətbuat və informasiya idarəsinin rəis müavini, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

XIX-XX əsrlərin tanınmış Fransa yazıçısı Jül Vern demişdir ki, zaman gələcək elm fantaziyanı geridə qoyacaq. Onun bu fikirləri 20-30 il bundan qabaq paradoks kimi görünsə də, zamanla həyata keçməyə başlayır. Tarix elmin bəxş etdiyi yeniliklərin qarşısında fantaziyanın belə acizliyini göstərdi. Əgər əvvəllər insanlar fantastik filmləri heyranlıqla izləyib ağıllı texnologiyaların, zaman maşınının, gözəgörünməz adamın nə vaxtsa reallığa çevrilə biləcəyini şübhə ilə qarşılayır, bunun mümkünsüz olduğunu düşünürdülərsə, indi bu möcüzələrə adi hal kimi yanaşmağa başlayıblar.

Bəşər tarixində yeni dövrün başlanğıcının qoyulması məhz elmin sayəsində mümkün oldu. Müasir dövrdə dünya inkişafın elə bir mərhələsinə qədəm qoyub ki, artıq cəmiyyət elmi yeniliklər, innovasiyalar olmadan keçinə bilməz. Elm qabaqcıl texnologiyaların tətbiqi sayəsində dinamik inkişaf edir, tamamilə yeni sahələri, tədqiqat istiqamətləri yaranır. O, bəşəriyyəti narahat edən problemlərin kökündə duran səbəbləri təfsilatı ilə araşdırmaqla onların həllinə dərindən nüfuz edir, müəmmalı, qaranlıq məsələlərə aydınlıq gətirir, əsrlər boyu sirli qalan bir çox suallara cavab tapır. XXI əsrin çağırışlarından olan kvant biologiyası, əşyaların interneti, sintetik biologiya, nanoelm, neyro iqtisadiyyat, settleretika və s. kimi yeni elm sahələri və istiqamətləri üzrə aparılan araşdırmalar, əldə olunan nəticələr buna bariz nümunədir. İnsan genlərinin “təmir edilməsi”, “ağıllı” bioprotezlər, bionik göz, süni ürək, xərçəngin nəfəsalma, qoxu vasitəsilə təyin edilməsi, süni uşaqlığın, insan orqanlarının yaradılması, qrafenin əldə olunması və s. kimi uğurlar və davam edən tədqiqatlar bəşər övladının, dünyanın gələcəyi üçün olduqca mühüm əhəmiyyət kəsb edir və kim bilir, gələcəkdə cəmiyyət üçün, dünya üçün daha hansı töhfələri bəxş edəcək.

**Elm və dayanıqlı inkişaf.** Bu gün hər bir sahədə innovativ irəliləyişin təmin olunması üçün dünya ölkələri siyasətinin əsasında dayanıqlı inkişaf strategiyası durur. Bu inkişafın əsas təminatçısının isə məhz elm, texnologiya və innovasiyaların olması qloballaşan dünyanın reallığıdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) 2030-cu ilə doğru davamlı inkişaf hədəflərinə nail olunmasında da aparıcı rolu bu üç amil oynayır. Artıq əksər ölkələr xammaldan asılılığı azaltmaq və biliklər iqtisadiyyatına doğru hərəkət etmək üçün inkişaf üzrə milli gündəliklərinə elm, texnologiya və innovasiyaları daxil edirlər. UNESCO-nun dünyada elm, təhsil, texnologiya və innovasiyaların vəziyyətini əks etdirən elm üzrə məruzəsində göstərilib ki, dünya miqyasında hökm sürən böhrana baxmayaraq tədqiqatlara və istehsala sərf edilən xərclər artıb və bu, onunla əlaqədardır ki, hazırda elmi tədqiqatlar və istehsal iqtisadi artım və inkişafda əsas amil kimi nəzərdən keçirilir. BMT-nin Elmi-Məşvərət Şurası siyasətin işlənilməsinə məsul olan şəxsləri qərarların qəbulu prosesində elmə daha çox diqqətin ayrılmasına (qlobal prioritetləri müəyyən etmək, daha mürəkkəb problemlərin həlli üzrə tədqiqatları və fəaliyyəti yönəltmək və əlaqələndirmək, həmçinin bütün dünyada verilənlərdən effektiv istifadəni təmin etmək) çağırış edir.

**Elm diplomatiyası.** Davamlı inkişafın bir çox hədəflərinə nail olunması həm də ölkələrin elmi inkişaf etdirmək üçün bir-biri ilə əməkdaşlıq səviyyəsindən asılıdır. Bu isə artıq elm diplomatiyasının vəzifəsidir. Diplomatiya və xarici siyasətin bir istiqaməti olan elm diplomatiyası dövlətlər arasında müvafiq sahədə birgə fəaliyyətin təşkili və yeni tədqiqat layihələrinin ərsəyə gəlməsinə zəmin yaradır. Təcrübə göstərir ki, bu fəaliyyətin sayəsində iqlim, təhlükəsizlik, səhiyyə məsələləri ilə bağlı qlobal çağırışların həlli yollarını tapmaq zəruriyyəti gücləndib, daxili və xarici siyasətin reallaşmasında qeyri-dövlət faktorlarının təsiri artıb, alimlərin fəaliyyəti və elmlə bağlı məsələlər KİV-də daha çox işıqlandırılmağa başlayıb.

Elm diplomatiyası dedikdə onun üç əsas istiqaməti başa düşülür: diplomatiyada elm, diplomatiya elm üçün və elm diplomatiya üçün. Birinci halda xarici siyasətdə məqsədlərə nail olunmasında elmin köməyi, ikinci halda beynəlxalq elmi əməkdaşlığa, elm və alimlərə diplomatiyanın dəstəyi, beynəlxalq elmi əməkdaşlıq prosesinin sadələşdirilməsi, üçüncü halda isə ölkələr arasında beynəlxalq əlaqələri yaxşılaşdırmaq üçün elmi əməkdaşlıq əlaqələrindən istifadə etmək, diplomatik münasibətlərin qurulmasına alimlər tərəfindən töhfələrin verilməsi kimi məsələlər nəzərdə tutulur.

Son 10 ildə Texas, Kaliforniya universitetləri, Karnegi-Mellon və Kornall ali təhsil ocaqlarının xarici ölkələrdə elm və texnika üzrə ixrtisaslaşmış şöbələrinin açılması məhz diplomatik danışıqlar nəticəsində mümkün olmuşdur. Elm diplomatiyasının uğuru sayəsində Massaçusets Texnoloji Universiteti (ABŞ) Rusiyada Skolkovo Elm və Texnologiyalar İnstitutunun yaradılmasına kömək etmişdir.

**Diasporun biliklər şəbəkəsinin vüsət almasında rolu.** Vətəndə və onun hüdudlarından kənarda innovasiyaların vüsət almasına diaspor böyük imkanlar yarada bilər. Diasporun təşkil etdiyi bilik şəbəkələrinin innovasiyaların yayılmasına verdiyi töhfələr haqda yetərli qədər sübutlar vardır. Hələ XX əsrin sonlarında Koreya və Tayvan diasporlarını öz vətənlərində texnoparkların yaradılması üçün Kaliforniyada Silikon vadisini tərk etməsinə razı salmağa nail olunmuşdur. Burada Hindistan diasporunun ölkəsinin informasiya texnologiyaları (İT) sənayesində oynadığı rolu da qeyd etmək yerinə düşər. XX əsrin sonlarında ABŞ-ın İT sənayesində çalışan bir çox hindistanlılar ölkələrindəki həmkarları ilə əməkdaşlıq etməyə və onları xarici icraçılar qismində cəlb etməyə başlamışlar. Təhlillər göstərir ki, Hindistanın ilk 20 İT şirkətindən 12-nin təsisçisi, həmtəsisçisi və baş icraedici direktorları hindistanlı mühacirlərdir.

Niderland hökuməti isə texniki potensialın artırılması və konfliktlərdən sonra bir sıra ölkələrə biliklərin ötürülməsinə kömək məqsədilə “İxtisaslı həmvətənlilərin müvəqqəti qayıdışı” layihəsini həyata keçirmişdir. Yüksəkixtisaslı həmvətənlilərin xarici ölkədən 6 ay müddətinə Əfqanıstana ölkənin bərpasına kömək üçün könüllü olaraq qaytarılması təsirli, mühəndislik və səhiyyədə texniki tərəqqiyə gətirib çıxarmışdır.

**Alimlərin mobilliyi və beynəlxalq elmi əməkdaşlıq.** Dünyada daha davamlı inkişafa nail olmaq üçün elmdə mobillik və beynəlxalq əməkdaşlıq da olduqca mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Beynəlxalq elmi əməkdaşlıq iqlim dəyişikliyi, su, ərzaq və enerji təhlükəsizliyi kimi qlobal problemlərin həlli yollarının axtarışında, o cümlədən yerli və regional iştirakçıların dünya elm cəmiyyətinə inteqrasiyasında son dərəcə vacib rol oynayır. Əməkdaşlıqdan tədqiqatların keyfiyyət və kəmiyyət göstəricilərinin artırılmasına kömək məqsədi ilə strategiya qismində geniş istifadə edilir. Avropa elmi-tədqiqat müəssisələrinin rəqabət qabiliyyətini artırmaq üçün Avropa Komissiyası alimlərin beynəlxalq mobilliyini asanlaşdırmaq və Avropa İttifaqı (Aİ) daxilində çoxtərəfli elmi əməkdaşlığı möhkəmləndirmək məqsədilə bir sıra proqramlar həyata keçirir. Məsələn, Mariya Sklodovskaya-Küri adına Aİ proqramı alimlərə dövlətlərarası, sahələrarası mobilliyə dəstək üçün qrantlar təqdim edir. Beynəlxalq mobilliyə təsir edən təşəbbüslərdən biri də dövlət tərəfindən maliyyələşdirilən müəssisənin öz vakansiyaları haqda elanı beynəlxalq səviyyədə verməsi ilə bağlı Aİ-nin tələbidir. Məqsəd isə alimlərin açıq əmək bazarına çıxışının təmin olunmasıdır. Bundan başqa, elmi viza Aİ-yə daxil olmayan ölkələrdən ərizə ilə müraciət edən tədqiqatçılar üçün inzibati prosedurları asanlaşdırır.

Ərəbistanın elm, texnologiya və innovasiyalar üzrə strategiyası isə çox mükəmməl fəaliyyət proqramını təqdim edir. Proqrama görə ölkələr atom energetikası, kosmos elmi, bioinformatika və nanobiotexnologiyalar kimi fənlərarası texnologiyalar üzrə beynəlxalq əməkdaşlıqda daha çox iştirak etməlidirlər.

Avropa üzrə aparılmış tədqiqatlar göstərib ki, ixtisaslı kadrların sektorlar (universitetlər və sənaye) və ölkələr arasında yüksək mobillik səviyyəsi işçi qüvvəsinin ümumi peşəkarlıq səviyyəsinin, həmçinin iqtisadiyyatda innovativ aktivliyin artmasına gətirib çıxarır. Beləliklə, alimlərin beynəlxalq mobilliyi ixtisasın artırılması, bilik şəbəkələrinin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi yolu ilə innovativ mühitin inkişafına zəmin yarada bilər.

**Vətəndaş elmi.** Elm cəmiyyətin yalnız o halda bir hissəsi ola bilər ki, buna bütün tərəflər - hökumət, təhsil müəssisələri və cəmiyyət - cəlb olunsun. Burada mühüm bir məsələ də sosial rifahın təmin olunmasında başlıca amil olan vətəndaşların bu prosesə cəlb olunmasındadır. Əgər elm cəmiyyət üçün açıq və şəffaf olmasa vətəndaşlar burada iştirak edə bilməzlər. Cəmiyyət cəlb edilmədən açıq məlumatlar sosial rifaha nail olunmasına kömək edə bilməz. Məsələn, çirklənmə səviyyəsinin artımına yerli təsirin aşkar olunması məqsədlərinə xidmət edən regional elmi layihə o vaxt uğurla həyata keçirilə bilər ki, vətəndaşlar virtual platforma vasitəsilə elmi müşahidəçilərə real vaxt rejimində öz səhhətləri haqqında məlumat versinlər. Vətəndaşlar layihənin qeyri-formal iştirakçıları olsalar da virtual platforma onları fəallaşdırır.

27 mart - Azərbaycanda Elm Günüdür. Bu il Azərbaycanda ilk dəfə olaraq 27 mart Elm Günü kimi qeyd olunur. 2018-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Elm Gününün təsis edilməsi Azərbaycan elminə və 70 ildən artıq tarixi olan Milli Elmlər Akademiyasına verilən yüksək dəyərdir, elmin fövqəlbəşəri bir güvvəyə malik olduğu dövrdə atılan tarixi və müdrik bir addımdır.

Milli elmimiz şərəfli missiyası ilə uzun və keşməkeşli yol keçib. Bu yolda çox çətinliklər, maneələr olsa da, elm inkişaf edib, mühüm nəticələr əldə olunub. Bu gün Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) qloballaşan dünyanın yeni, davamlı inkişaf hədəflərinə doğru inamla addımlayır. Onun qarşısına qoyduğu əsas məqsəd innovativ irəliləyişin təminatçısı olan elm, texnologiya və innovasiyaları inkişaf etdirmək, hər bir sahədə tətbiqinə uğurla nail olunmasına öz töhfələrini verməkdir. Elmi tədqiqatların mərkəzləşdirildiyi bir qurum kimi Milli Elmlər Akademiyasında son dövrlərdə yeni elmi istiqamətlərə, multidissiplinar tədqiqatlara diqqət daha da artırılıb. Tədqiqatların elmi səviyyəsinin yüksəldilməsi, beynəlxalq tələblərə cavab verməsi üçün AMEA müxtəlif xarici elmi proqram və layihələrdə fəal iştirak edir, dünyanın aparıcı elmi mərkəzləri ilə səmərəli əlaqələr qurur, dünyanın qabaqcıl elmi mərkəzlərində onlarla gənc alim təcrübə keçir. Biliklərə əsaslanan cəmiyyət quruculuğunda yaxından iştirak edən AMEA-nın son illər dünyanın nüfuzlu elmi informasiya bazalarında göstəricilərinin artması, elmin inkişafının əsas hərəkətverici qüvvəsi olan təhsillə elmin vəhdəti, yaradılan magistratura təhsil pilləsi, müasir dövrün diqtəsi olan elmi-texnoloji innovasiya parklarının yaradılması və inkişaf etdirilməsi, elmlə istehsalat əlaqələrinin artırılması, o cümlədən aparılan islahatların müsbət nəticələri ölkədə elm siyasətinin uğurla bərqərar olmasından xəbər verir.

## ERMƏNİ MƏKRİ HƏR ADDIMDA:

# əks-hücum taktikasına keçməyimizin vacibliyi



**Danılmaz faktdır ki, Azərbaycan tərəfi sülhün tərəfdarı olduğunu zaman-zaman sübut etsə də, işğalçı Ermənistanın qondarma ideologiyalarla beyni zəhərlənmiş separatçıları, eləcə də dünyanın müxtəlif yerlərinə səpələnmiş erməni diasporu gizli-aşkar, hər vəchlə öz məkrli planlarını həyata keçirməyə davam edirlər.**

Azərbaycanın əzəli torpaqlarında məskunlaşan erməni quldurları misli görünməmiş nankorluq nümayiş etdirərək keçən əsrin əvvəllərindən başlayaraq xalqımıza qarşı dəhşətli soyqırımları və qanlı faciələr törədərək öz qorxunc planlarını həyata keçirməkdən çəkinməyiblər. Öz havadarlarının köməyi ilə Azərbaycanın iyirmi faiz torpağını işğal edən, bir milyondan artıq azərbaycanlının tarixi dədə-baba yurdlarından qovularaq qaçqın və məcburi köçkün taleyi yaşamasına səbəb olan erməni separatçıları bununla da kifayətlənməyib işğal etdikləri ərazilərdə maddi -mənəvi, dini və tarixi abidələrimizi barbarcasına məhv ediblər.

Bu gün müvəqqəti atəşkəs rejiminə uyğun olaraq işğalçı Ermənistanla döyüşlər aparılmasa da, əslində onlar demək olar ki, hər addımda öz əsassız iddiaları, oğurluqları və plagiatları ilə xalqımıza qarşı müharibəni üzdə görünməyən, ancaq daha amansız şəkildə və dərin qatlarda davam etdirirlər.

Azərbaycanın milli, mədəni, dini və tarixi abidələrinin, adət-ənənələrinin, mədəniyyətinin, incəsənətinin, tarixinin, hətta mətbəxinin belə ermənilər tərəfindən mənimsənilməsi, "özününküləşdirilməsi", öz adlarına çıxılması uzun müddətdən bəri davam edən prosesdir. Ermənilər Azərbaycana qarşı olan ərazi iddiaları ilə kifayətlənməyib, demək olar ki, xalqımıza aid nə varsa, ona əl və dil uzadacaq qədər həyasızlıq nümayiş etdirirlər. "Dənizdən dənizə böyük Ermənistan" xülyası ilə az qala kütləvi erməni psixozuna yoluxan işğalçılar Azərbaycana aid hər şeyin erməniləşdirilməsi prosesini demək olar ki, hər sferada durmadan həyata keçirməyə və sonra beynəlxalq ictimaiyyətə "erməni irsi" kimi təqdim etməyə cəhd göstərirlər. Təəssüf ki, bəzən öz oğurluqları və plagiatları ilə beynəlxalq ictimaiyyətin də gözünü bağlayır və hansısa müddətə öz məqsədlərini həyata keçirməyə müvəffəq olurlar.

Erməni təxribatı hər addımda qarşımıza çıxır. İşğalçı qüvvələr ən kiçik nüansla belə öz məqsədlərini həyata keçirməyi qənimət hesab edirlər.

Jurnalistika peşəsinin tələblərinə və bəzən mövzu seçiminə uyğun olaraq vaxtaşırı erməni mediasına göz atdığım zaman bir çox məqamlarda Azərbaycan əleyhinə yazılan qərəzli, əsassız iddialara söykənən yazılardan əlavə, bəzən kiçik görünüb gözdən qaçan, amma əslində böyük önəm kəsb edən erməni təxribatları ilə tez-tez qarşılaşıram. Məsələn, işğalçı ölkənin dövlətimiz əleyhinə qərəzli, son dərəcə aqressiv mövqe tutan, dağıdıcı və separatçı erməni xislətinə malik müəllifləri ətrafında toplayan "armenianreport" saytının "kontaktlar" bölümündə əlaqə vasitəsi olaraq belə bir qeyd təqdim olunur: "greatarmenia@armenianreport.com". İlk baxışda o qədər də önəm kəsb etməyə bilər, amma əslində bu da beynəlxalq ictimaiyyətin şüuruna zorla və görünmədən yeridilən "erməni zəhəri"nin bir damlasıdır. Özlərinin saxta "böyük Ermənistan" xülyasını hər addımda və hər vəchlə dünyaya sırımağa çalışan ermənilər beləcə "beyin yumaq və mütəmadi qəbul etdirmək" prinsipi ilə ən kiçik detallarla da öz sayıqlamalarını unutmur və unutdurmurlar. Diqqətə alınacaq ciddi faktlardandır.

Erməni təxribatı təəssüf ki, bu kimi faktlarla yekunlaşmır. Təcavüzkar dövlətin daha bir saytı olan "armeniasputnik" də ilk baxışda gözəgörünməz, amma əslində ciddi oğurluq faktları və "erməniləşdirmə" cəhdləri ilə heç də digər erməni internet resurslarından geri qalmır. Ən gözəçarpan bir fakta nəzər salaq. "Sputnik" informasiya agentliyinin təxminən 30 dildə və hazırda sutkada 800 saat olmaqla dünyanın 130 şəhərində və 34 ölkəsində fəaliyyət göstərən saytlarına və yerli radiolarında əsasən təmsil olunduqları ölkənin müxtəlif sferalarını əhatə edən xəbərlər hazırlanır. Sözügedən "armeniasputnik" adıçəkilən şəbəkəyə daxildir- amma təbii ki, öz erməni məkri və gizli təxribatları ilə. Belə ki, sözügedən informasiya qovşağının əksər dillərdəki xidmətlərində mətbəxlə bağlı bölümlər ümumi şəkildə "Mətbəx" və yaxud "Dünya mətbəxi" adı ilə fəaliyyət göstərsə də, "armeniasputnik"də təamlar haqqında olan bölmə "Dadlı Ermənistan" rubrikası ilə oxuculara və dinləyicilərə təqdim olunur. Təbii olaraq da, ermənilər özlərinə aid heç nələri olmadığına görə burada da çoxəsrlik tarixə malik milli Azərbaycan xörəkləri olan lavaş, dolma, piti, plov, xaş, quymaq kimi yeməkləri, eləcə də bir sıra milli içkilərimizi Ermənistan təamları adı altında "Dadlı Ermənistan" bölümündə beynəlxalq ictimaiyyətə "sırıyırlar". Bu yaxınlarda həmin rubrikada şahidi olduğum başqa bir təxribatçı məqam da Azərbaycanın qədim şəhərlərindən olan İrəvanı öz tarixi paytaxtları kimi təqdim etmək cəhdi ilə "bəzəyərək" növbəti uydurmalarından olan "Erebuni" adlı guya qədim milli xörəklərini təqdim ediblər.

Bu günlərdə isə təsadüfən 2008-ci ildən Ukraynanın "STB" telekanalında yayımlanan "Tanüöt vse!" layihəsinin "Youtube"da 2013-cü ilə aid materialı qarşıma çıxdı. Xatırladaq ki, bu teleşouda müxtəlif ölkələrin nümayəndələri öz rəqs məharətlərini nümayiş etdirirlər. Rəqsə başlamadan öncə hər iştirakçı öz xalqına aid milli musiqi təranələri altında qısa tərcümeyi-halını danışır, daha sonra rəqs performansını təqdim edir. Sözügedən materialda erməni rəqqasə öz avtobioqrafiyasını tanınmış Azərbaycan bəstəkarı Ələkbər Tağıyevin şairə Mədinə Gülgünün sözlərinə bəstələdiyi məşhur "Sən gəlməz oldun" mahnısının sədaları altında təqdim edirdi. Erməni avtobioqrafiyası Azərbaycan mədəniyyətinin müşayiəti ilə - saxtakar ermənilərin ən çox əl atdıqları "üsul"!

Bu kimi faktlar 5-10 deyil, minlərlə, onminlərlədir. Üstəlik də, ağıla gələn və gəlməyən bütün sferaları əhatə edir, hər addımda qarşımıza çıxır. Azərbaycanın ərazilərinə, tarixinə, incəsənətinə, mədəniyyətinə qarşı yönəlmiş bu məqsədyönlü təxribatların, "erməniləşdirmə" cəhdlərinin, həyasızcasına mənimsəmələrin, oğurluqların, plagiatların qarşısının alınması üçün məsuliyyət təkcə dövlətimizin deyil, həm də vətəndaşlarımızın üzərinə düşür. Əlbəttə, bu sahədə həm dövlət, həm ayrı-ayrı vətəndaşlar, həm də Azərbaycan diasporu tərəfindən böyük miqyasda işlər görülür və görülməkdədir. Ancaq həyata keçirilən işlərlə kifayətlənməməliyik. Erməni təxribatlarına qarşı hər addımda ayıq-sayıq olmaq vacibdir. Fəaliyyət göstərdiyimiz sahələrdə hər kəs öz mövqeyinə, statusuna müvafiq olaraq məqsədli şəkildə həyata keçirilən "erməni hallüsinasiyası"nın ifşa olunması və qarşısının alınması üçün səylərini əsirgəməməlidir. Bu tipli erməni məkrinə və sayıqlamalarına qarşı təkcə yerli mətbuatda deyil, məqsədyönlü müəyyənləşdirilmiş konsepsiya əsasında daha çox beynəlxalq mediada mübarizə aparmalı, müdafiə mövqeyindən əks-hücum taktikasına keçməli və separatçıların saxtakarlıqlarını ifşa etməliyik.

✍ **Sevinc Abdullayeva, *"İki sahil"***

## Şəkidə içməli su və kanalizasiya layihəsinin icrası davam etdirilir



**Qədim tarixə və böyük turizm potensialına malik Şəki şəhərində əhalinin içməli su təchizatı və tullantı sularının axıdılması xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihənin icrası sürətləndirilib. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində həyata keçirilən layihənin növbəti mərhələsində yeni subartezian quyuları qazılacaq, içməli və tullantı su şəbəkələri tikiləcək. Layihənin icra vəziyyəti və görüləcək işlər Şəki şəhərində keçirilmiş təqdimatda geniş müzakirə olunub.**

Şəki Şəhər İcra Hakimiyyətinin, "Azərsu" ASC-nin, məsləhətçi və podratçı şirkətlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə layihənin məqsədi, faydası, tikinti-quraşdırma işlərinin icra qrafiki, ekoloji əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, bu layihə əhalinin sosial rifahının yüksəldilməsi, həyat şəraitinin yaxşılaşması və məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov Prezident İlham Əliyevin əhalinin içməli su təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxladığını xatırladaraq Şəki şəhərində layihənin birinci mərhələsi üzrə işlərin uğurla yekunlaşdığını vurğulayıb.

Təqdimat zamanı məlumat verilib ki, "Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının (KFW bankı) birgə maliyyələşdirdikləri "II Açıq Kommunal İnfrastruktur Proqramı" çərçivəsində həyata keçirilir. Layihənin icrasından 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 79 min nəfər faydalanacaq.

Layihənin birinci mərhələsində əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün Kiş mənbəyində sugötürücü qurğu və 13 su anbarı inşa edilib. Eyni zamanda şəhər ərazisində 124 km içməli su və 98 km kanalizasiya şəbəkəsi yaradılıb. Yeni tikilmiş şəbəkədən abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb.

Şəki şəhərinin böyüməsi, əhali artımı və turizm potensialı nəzərə alınaraq içməli suya olan tələbatın tam ödənilməsi üçün 15 yeni subartezian quyusu qazılacaq. Artezianların dayanıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə generator stansiyası quraşdırılacaq. Su mənbəyi ilə anbarların əlaqələndirilməsi məqsədilə ümumi uzunluğu 4 km olan toplayıcı su kəmərləri inşa ediləcək.

Şəhər ərazisində içməli su və tullantı su şəbəkələrinin də tikintisi davam etdiriləcək. Cari ildə 30 km içməli su və 30 km kanalizasiya şəbəkələri inşa olunacaq. Yeni yaradılan şəbəkədən abonentlərə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Layihə çərçivəsində "Şəki Sukanal" TSC üçün müasir tipli yeni inzibati bina tikiləcək.

Layihəyə əsasən, ümumilikdə Şəki şəhərində 22 min kubmetr tutumu olan 21 su anbarının, 314 km içməli su və 294 km tullantı su şəbəkələrinin tikintisi nəzərdə tutulur. Tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə ilkin mərhələdə məhsuldarlığı sutkada 8000 kubmetr olan tullantı sutəmizləyici qurğu da inşa ediləcək.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***

## *Mübariz Əhmədoğlu:*

# Paşinyan "ağ yalanlar" danışır...

"ATƏT-in Minsk qrupunun vasitəçiliyi yalnız ermənilər üçün konsensus mexanizminə görə cəlbedici idi. Belə görünür ki, bu qurumun son dövrlərdəki fəaliyyəti erməniləri daha çox narazı salıb. Dağlıq Qarabağın Azərbaycanlı icması ATƏT-in Minsk qrupunda qeydiyyatdan keçib-keçməməsindən asılı olmayaraq öz fəaliyyətini kifayət qədər genişləndirmək imkanına malikdir. Bu aktivlik Ermənistan tərəfinin mövqeyini daha da çətinləşdirəcək. Dağlıq Qarabağın azərbaycanlı icmasının mövqeyi həm də ATƏT-in Minsk qrupu üçün əlavə gərginlik yarada bilər. Bu olmasın deyə ən yaxşısı Dağlıq Qarabağın azərbaycanlı icmasının ATƏT-in Minsk qrupunda qeydiyyatdan keçməsidir".

Bu fikirləri dünən keçirdiyi "Qarabağ saatı"nda Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu söyləyib. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağın azərbaycanlı icmasının fəaliyyətinin gücləndirilməsi ilə bağlı atdığı addım qısa müddətdə öz effektini göstərir.

Mübariz Əhmədoğlunun fikrincə, hazırkı vəziyyətdə Azərbaycanın hərbi və diplomatik mövqeyinin güclənməsi Ermənistanı küncə sıxışdırır. Ermənilər Rusiyada da nüfuzlarını itirdiklərindən indi təxribatlara əl atırlar. Ermənilərin imitasiya resursunu neytrallaşdırmaq, onları tənzimləmə prosesinə daha da yaxınlaşdırmaqdan ötrü ATƏT-in Minsk qrupunun əlində kifayət qədər ciddi diplomatik vasitə yaranır. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının statusunun tanınması və onun təşkilatda qeydiyyata alınmasıdır: "Bu məsələ indiki dövrdə tənzimlənməyə təkan verəcək. Həm də ona görə ki, Dağlıq Qarabağ ermənilərinə veriləcək aralıq statusda nəzərdə tutulan məsələlərdən biri həmin aralıq icmanın ATƏT-in Minsk qrupunda qeydiyyata alınmasıdır".

Politoloq əlavə edib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın biri-birinə zidd bəyanatları göstərir ki, onun Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatı yoxdur. Paşinyan indi də "ağ yalanlar" danışmağa başlayıb: "Ermənistanın Təhlükəsizlik Şurasının Xankəndidəki iclasının nəticəsi olaraq Paşinyan Dağlıq Qarabağın danışıqlara tərəf kimi qatılmasını şərt kimi irəli sürmədiyini bəyan etdi. Bu, özünütəkzibdir, ağ yalandır. 3 prinsip 6 maddəli sənədin Azərbaycan və Ermənistan tərəfindən müxtəlif cür oxunduğunu bildirdi və hər iki tərəfdən müxtəlif cür oxunan sənəd əsasında bu münaqişəni tənzimləməyin mümkün olub-olmayacağını həmsədrlərin təşkil etdiyi görüşdə müzakirəsinin vacibliyi bildirdi".

M. Əhmədoğlu hesab edir ki, Paşinyan intellekt baxımından hətta avtoritet Serj Sarkisyandan da geri qalır. Belə naşılıqla onun fəallığı Ermənistanın məğlubiyyətini qaçılmaz edir.

✍ **Taleh Turqut, *"İki sahil"***

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

**iki sahil** Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

16

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 53 (7308) / Çərşənbə, 20 mart 2019-cu il


# Onlayn satışa inanmaq olarmı?



Onlayn satış saytları vaxt məhdudiyyəti olan insanlar üçün xüsusi əhəmiyyət daşıyır. Hər gün yüzlərlə insan bu vasitə ilə alış-veriş edir. Bəs səhifələr təqdim etdiyi məhsulların keyfiyyətinə və vaxtında çatdırılmasına cavabdehlik daşıyırmı?

ARB TV-nin "Günə doğru" proqramı mövzu ilə bağlı maraqlı süjet hazırlayıb.

Adətən saytlarda məhsul təqdim edilərkən çatdırılma üçün nəzərdə tutulan məbləğ istehlakçıdan əlavə alınır. Həmçinin məhsulun şəkli müştəriyə göndərilir. Lakin sifariş çatdırıldıqdan sonra aydın olur ki, nə rəng, nə keyfiyyət fotoda təqdim edildiyi kimi deyil. Geri qaytarmaq təklifini isə qarşı tərəf müxtəlif bəhanələr gətirərək qəbul etmir. Belə olduqda isə məsələ hüquqi müstəvidə həll olunur.

Onlayn satış ilə məşğul olan dünya miqyaslı böyük portallar öz nüfuzlarını qorumaq üçün müştəri məmnuniyyətinə həssaslıqla yanaşır. Onlar saytlarında yaratdığı imkanlarla istehlakçı məhsulu qiymətləndirə, şəklini rəy bölümündə paylaşa, şikayət edə və ödədiyi məbləği qaytara, eləcə də məhsulu yenisi ilə əvəz edə bilər.

Mütəxəssislər, həmçinin bildirir ki, belə neqativ hallarla qarşılaşan şəxslər bunu sosial şəbəkələrdə paylaşmaqla ictimai qınaq yarada bilərlər. Qanunvericiliyə əsasən, istehlakçı əldə etdiyi məhsulu keyfiyyətsiz olduğu təqdirə 14 gün ərzində geri qaytara bilər.

# Dubay haqqında bunları bilirsinizmi?



Əgər dünyanın ən prestijli istirahət mərkəzinin hara olduğunu soruşsaq, yəgin ki, bir çoxlarının ağlına Dubay şəhəri gələcək. 1966-cı ildə burada nəhəng neft yataqları aşkar olunub və bundan sonra Birləşmiş Ərəb Əmirlikləri sürətlə inkişaf etməyə başlayıb.

Sürətli inkişaf Dubayı ən böyük və varlı meqapolisə çevirdi. Bu gün ölkənin əsas gəlir mənbəyi yeni texnologiya, turizm və ölkələrarası ticarətdir. Bu gün oxucularımızı Dubay haqqında daha bir maraqlı faktlarla tanış edəcəyik.

Dubayda dəvə yarışları ənənəvi əyləncədir və əsrlər boyu davam edib. Əvvəllər dəvələr təyin olunmuş yeri rahat qət etmələri üçün atılları arıq uşaqlar seçirdilər. Bəzən uşaqları hətta ac belə saxlayırdılar. XXI əsrdə belə bir təcrübə ciddi etiraza səbəb oldu və nəticədə robotlaşdırılmış jokerlər hazırlandı. Bu jokerlər yüngül və bacarıqlı idilər.

Dubayda məktub göndərmək istəsəniz orada ünvanı qeyd etməyə ehtiyac yoxdur. Belə ki, hər bir insan xüsusi bazada qeydiyyatdadır və 10 nişanlı idendifikatoru sahibdir. Siz sadəcə həmin idendifikatoru qeyd edirsiniz və poçt xidməti məktubu lazım olan yerə təslim edir.

Mükəmməl arxitekturaya malik olan göydələn 2009-cu ildə inşa edilib və 828 metrlik rekord yüksəkliyə sahibdir. Bu heyrətamiz tikilinin ərsəyə gəlməsi üçün 6 il zaman sərf olunub və hər gün 12 min fəhlə çalışıb. Göydələn 80 kilometr uzaqlıqdan görünür, lakin göydələnin ən yüksək mərtəbəsindən günəşin batmasını izləmək daha mükəmməldir.

Burada olan qeyri-adi qış attraksionu 2,2 hektar sahəni əhatə edir. Təchizat hər gün 30 ton qar istehsal edir. Şəhər sakinləri və qonaqlar isti hava şəraitindən sərinləmək üçün buraya təşrif buyururlar. Burada 5 xizək trassından istifadə etmək olar.

Dubay sakinləri hər bir yerdə komfortu sevirlər. Dözülməz istilər küçədə rahat hərəkət etməyi çətinləşdirir. Buna görə də bir çox yerlərdə kondinsionerlər quraşdırılır, hətta dayanacaqlarda da. Kənardan bu qəribə görsənsə də həqiqətdə bu çox gözəl fikirdir.

Süni adaların tikintisi torpaq çatmazlığı baxımından mükəmməl ideyadır. Dubayda torpaq sahəsi çox bahadır. Xüsusilə də sahillərdə. Varlı iş adamları süni adalar yaradaraq bahalı evlər və otellər tikirlər.

Dubay yer üzündə ən təhlükəsiz şəhər hesab olunur. Məsələn, burada bir insanı öldürmək ABŞ-da 11 dəfə oğurluq hadisəsinin baş verməsindən qat-qat aşağıdır.

Dubaydakı ticarət mərkəzi dünyanın ən böyük mərkəzi hesab olunur. Bu yeganə mərkəzdir ki, onun sahəsi 44 hektar sahəni əvəz edir. 465 min metr sahədə 1200 mağaza fəaliyyət göstərir və bir il ərzində mərkəzə 54 milyon insan gəlmiş olur.

Dubayda küçədə zinyət əşyaları, bahalı elektronika və hətta qızıl əşya satılan avtomatlar yerləşdirilib. Burada bankomatlardan nadir hallarda istifadə olunur. Belə ki, burada gündəlik həyatda kağız pullardan istifadə etmək yaxşı qəbul olunmur.

Dubayda küçədə gəzərkən üzərini toz basmış çox bahalı avtomobilə rast gələ bilərsiniz. Belə ki, bəzən insanlar avtomobillərini harada qoyduqlarını unudurlar və əvəzinə yeni maşın alırlar. Lakin hökumət yaddan çıxmış avtomobilin küçədə çox qalmasına imkan vermir və onları yaddan çıxmış avtodayanacaqlara yerləşdirir. Bundan başqa, yerli varlılar mütəmadi olaraq pul ilə və ya zinyət əşyaları ilə dolu çamadan və ya çantalarını da unudurlar.

✍ **Könül Cavid, *"İki sahil"***

# Yumurta qabıqlarını atmayın

**Yumurtanın orqanizmimiz üçün faydalarını saymaqla bitməz. Səhər yeməyimizin əvəzsiz qidası olan yumurtanın bir faydası da onun qabığında gizlənir. Siz yumurta qabıqlarını zibil qabına atmamaqla onları müxtəlif sahələrdə dəyərləndirə bilərsiniz.**



Kövrək görünən yumurta qabıqları əslində olduqca möhkəmdir və üzvi maddələrlə zəngin olduğu üçün faydaları çoxdur. Yumurta yüksək miqdarda amin turşularının və DNT zəncirlərinin qorunması və saxlanması üçün əhəmiyyətli molekul qruplarından ibarətdir. Buna görə bir çox sahədə yumurta qabığından istifadə edə bilərsiniz.

### Paltarlarınızı ağardacaq

Paltarlarınızı ağartmaqda çətinlik çəkdiyiniz halda yumurta qabıqları bu nöqtədə sizə kömək edəcək. Yumurta qabıqlarını əzin və paltarlarınızı ağartmaq üçün paltaryuyan maşına qoyun. Ləkələri asanlıqla aradan qaldıracaq və ağ rəngli paltarlarınız olduğundan daha ağ olacaq.

### Bitkilərinizi bəsləyin

Bitkilərinizin sağlam qida qaynaqlarından faydalanmasını istəyirsinizsə, yumurta qabığını istifadə edə bilərsiniz. Bir fincan isti suya qoyun və 5-10 dəqiqə saxlayın. Bağçanızı gözəlləşdirmək üçün bu su ilə bitkilərinizi 10-15 dəqiqə sulayın.

### Evdə təbii təbaşir hazırlayın

Yumurta qabıqları ilə uşaqlarınız üçün təbii təbaşir hazırlaya bilərsiniz. Bunun üçün unu bir qabda isti su ilə qarışdırın və 1 yemək qaşığı əzilmiş yumurta qabığı əlavə edin. Yaxşıca qarışdırın. Əgər rəngli olmasını istəyirsinizsə istənilən rəng maddəsini əlavə edin və bütün qarışığı yaxşı qarışdırın. Sonra bir quyuya tökün və üç gün qurudun.

### Bağçanızı zərərverici böcəklərdən və heyvanlardan qoruyun

Çox sevdiyiniz bağçanızı danadişlər, ilbizlər və hətta pişiklərdən qorunmaq istəyirsinizsə, yumurta qabığından istifadə edə bilərsiniz. Yumurta qabıqlarını əzin və bağçanızın ətrafına səpin. Bununla da zərərverici kiçik böcəklərin yox olduğunu görəcəksiniz.

✍ **Röya Rasimqızı, *"İki sahil"***

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Baş ofisinin kollektivi Şirkətin İqtisadiyyat və Uçot İdarəsinin Maliyyə və xəzinədarlıq şöbəsinin rəis müavini Azər Muradova, atası

**Zakir Muradovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 20.03.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8287**
*İndeks:* **0151**, *Sifariş:* **923**